
NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET № 91 (7346) / Çərşənbə axşamı, 21 may 2019-cu il


# Azərbaycan onilliklər, yüzilliklər ərzində tranzit imkanlarından istifadə edərək öz büdcəsini artıracaq



*Prezident İlham Əliyev:*

*"...Bu gün biz daha böyük enerji layihəsini icra edirik və əminəm ki, uğurla başa vuracağıq. Baxmayaraq ki, açıq dənizə çıxışımız yoxdur, biz Azərbaycanı nəqliyyat mərkəzinə çevirmişik. Bu sahəyə qoyulan sərmayə gələcəyə qoyulan sərmayədir. Çünki bundan sonra Azərbaycan onilliklər, yüzilliklər ərzində tranzit imkanlarından istifadə edərək öz büdcəsini artıracaqdır. Azərbaycana daxil olacaq vəsait, sadəcə, coğrafi vəziyyətdən və tranzit imkanlardan asılı olacaqdır."*

⇧ Baxı: səh. 2



## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayı münasibətilə Azərbaycan xalqına xoş arzularını çatdırıb

## YAP-ın ümumrespublika müşavirəsi keçirildi



⇨ Baxı: səh. 4

⇧ Baxı: səh. 2



*Cüzeppe Kaniliya:*

## Azərbaycan İtaliya üçün olduqca vacib ölkədir

⇧ Baxı: səh. 2

## SOCAR-ın vitse-prezidentləri AMEA YT Parkın məhsulları ilə tanış olublar



⇧ Baxı: səh. 8

## Ekoloji problemin həlli və ətraf mühitin qorunması hər bir insanın mənəvi borcudur




**11** Əli Kərimli artıq özünü manyak kimi aparır

**14** *Koçaryan-Paşinyan savaşı:* Kim qalib gələcək?

**16** Dünyanın ən hündür ağacı

## Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayı münasibətilə Azərbaycan xalqına xoş arzularını çatdırıb



Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan xalqına Ramazan ayı münasibətilə xoş arzularını çatdırıb.

Trend-in məlumatına görə, sosial şəbəkədə edilən paylaşımda deyilir:

"İnsanların qəlbini nurlandıran, onları birliyə, sülh və əmin-amanlığa, əxlaqi saflığa, xeyirxah əməllərə dəvət edən mübarək Ramazan günlərində xoş niyyətlərinizlə həmrəy olduğumu bildirir, bütün dua və diləklərinizin Tanrı tərəfindən eşidilib qəbul olunmasını arzu edirəm".

## Zurab Sereteli "Dostluq" ordeni ilə təltif edilib

Azərbaycan Prezidenti İlham Əliyev Zurab Seretelinin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

Sərəncama əsasən, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni əlaqələrin möhkəmləndirilməsində səmərəli fəaliyyətinə görə Zurab Konstantinoviç Sereteli "Dostluq" ordeni ilə təltif edilir.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Milli bayramınız - Respublika Günü münasibətilə Zati-alinizə təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram. Qarşıdakı illərdə Azərbaycan xalqına firavanlıq və xoşbəxtlik arzulayıram.*

*Hörmətlə,*

**Ülyahəzrət II Elizabet**
Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Zati-aliləri, Qardaşım İlham Heydər oğlu Əliyev.*

*Ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Səudiyyə Ərəbistanı Krallığının xalqı və Hökuməti adından, şəxsən öz adımdan Zati-alinizə ən səmimi təbriklərimi çatdırıram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan dövlətinə və xalqına davamlı inkişaf və rifah arzu edirəm.*

*Zati-alinizə hörmət və ehtiramla,*

*Qardaşınız*

**Salman bin Əbdüləziz Al Səud**
İki Müqəddəs Ocağın Xadimi,
Səudiyyə Ərəbistanının Kralı

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Zati-aliləri.*

*28 May - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.*

*Ölkələrimiz uzun illər boyu müxtəlif sahələrdə əməkdaşlıq edərək dostluq münasibətlərini davamlı olaraq inkişaf etdirmişlər. Ümidvaram ki, ölkələrimiz arasında qarşılıqlı faydalı və gələcəyə yönəlmiş sıx əməkdaşlıq münasibətlərini daha da dərinləşdirəcək və gücləndirəcəyik. Əminəm ki, bu proses xalqlarımız arasında mövcud dostluğun daha da dərinləşməsinə böyük töhfə verəcəkdir.*

*Zati-aliləri, Sizə möhkəm cansağlığı və gələcək fəaliyyətinizdə uğurlar, Azərbaycan Respublikasına isə davamlı rifah arzu edirəm.*

*Dərin hörmətlə,*

**Mun Ce-in**
Koreya Respublikasının Prezidenti

# Kürdəmirdə "ASAN xidmət" mərkəzinin tikintisinin başa çatdırılmasına 20 milyon manat ayrılıb

**Azərbaycan Prezidenti İlham Əliyev Kürdəmir rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.**




Sərəncama əsasən, Kürdəmir rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində digər layihələr üzrə dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.25.1-ci yarımbəndində göstərilmiş məbləğin 20 145 000 (iyirmi milyon yüz qırx beş min) manatı Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ayrılır.

Maliyyə Nazirliyi göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

*Cüzeppe Kaniliya:*

## Azərbaycan İtaliya üçün olduqca vacib ölkədir



İtaliya Azərbaycanlılarının Koordinasiya Şurasının təsis toplantısında Azərbaycan həqiqətlərinin təbliği üçün görəcəyimiz işləri müzakirə etdik. Azərbaycan İtaliya üçün olduqca vacib ölkədir. İki ölkə arasında müxtəlif istiqamətlərdə, həmçinin siyasi və iqtisadi sahələrdə yaxşı əlaqələr var.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Neapol-Bakı Assosiasiyasının prezidenti Cüzeppe Kaniliyan deyib.

Təşkilatının fəaliyyətinə toxunun Cüzeppe Kaniliyan qeyd edib ki, Assosiasiya yarandığı 2014-cü ildən indiyədək iki ölkə arasında mədəni və iqtisadi əlaqələrin daha da möhkəmlənməsində yaxından iştirak edib və bir sıra tədbirlərin təşkilatçısı olub.

*PA rəsmisi:*

## Məhkəmə-hüquq sistemində davam edən islahatların dəstəklənməsinə ehtiyac var

Azərbaycanda məhkəmə-hüquq sahəsində yeniliklərlə bağlı müvafiq fərman imzalanıb.



Trend-in məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər şöbəsinin sektor müdiri Vüsal İsayev "Məhkəmə-hüquq islahatlarının əsas istiqamətlərinin sahibkarlarla ictimai müzakirəsi" mövzusunda keçirilən tədbirdə deyib.

O qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən məhkəmə islahatları ilə bağlı imzalanan fərmanda əsas istiqamətlərdən biri məhz sahibkarlığın inkişafına şərait yaratmaqdır: "Son dövrdə həyata keçirilən islahatlar bunu deməyə əsas verir ki, məhkəmə-hüquq sistemində davam edən islahatların dəstəklənməsinə ehtiyac var. Bütövlükdə fərmanın əsas məqsədi ədalət mühakiməsinin effektivliyinin təmin edilməsi, məhkəmələrin nüfuzunun artırılmasıdır. Fərmanda hər bir sahə üzrə konkret tapşırıqlar verilib. Cinayət mühakiməsi icraatı istiqamətində qanunvericiliyin humanistləşdirilməsinin davam etdirilməsi, prokurorluq və vəkilliklə bağlı konkret tapşırıqlar müəyyən olunub".

# SOCAR-ın vitse-prezidentləri AMEA YT Parkın məhsulları ilə tanış olublar

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) kadr, rejim və informasiya texnologiyaları üzrə vitse-prezidenti Xalik Məmmədov və strateji inkişaf üzrə vitse-prezidenti Tofiq Qəhrəmanov AMEA-nın Yüksək Texnologiyalar Parkında (YT Park) istehsal prosesi ilə tanış olublar.



AMEA-dan AZƏRTAC-a bildirilib ki, əvvəlcə YT Parkın Strateji Elmi Analitik Sınaq Mərkəzinə baxış olub. Mərkəzin müdiri, kimya üzrə fəlsəfə doktoru Arzu Əlizadə tərəfindən laboratoriyanın avadanlığı, imkanları və burada göstərilən xidmətlər barədə məlumat verilib.

Qonaqlar daha sonra YT Parkın rezidentləri - AMEA Təcrübə Sənaye Zavoduna və "Millers Oils Azerbaijan" MMC-nin istehsal sahəsinə gedərək hazır məhsullarla tanış olublar. Həmçinin YT Parkın digər rezidenti "Elm və Texnologiya Parkı" MMC tərəfindən istehsal olunan dronlar və pilotsuz uçuş aparatları barədə məlumat alıblar.

# İslam aləminin ayrılmaz parçası




Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələrinin birgə yaşadığı Azərbaycan ölkəmizin bütün vətəndaşları üçün ikinci Vətən olmuşdur. Azərbaycan vətəndaşları bir ailənin üzvləri kimi sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşamış, birgə fəaliyyət göstərmişlər.

Azərbaycanın zəngin tarixi, mədəniyyəti, xalqımızın İslami dəyərlərə verdiyi dəyər müsəlman ölkələri tərəfindən qiymətləndirilir.

Avropa Şurasında və İslam Əməkdaşlıq Təşkilatında təmsil olunan nadir ölkələrdən sayılan Azərbaycanla Avropa İttifaqına üzv 9 ölkə arasında strateji tərəfdaşlıq sənədi imzalamışdır. Xarici siyasətinin əsasını qarşılıqlı əməkdaşlıq prinsipinə sadiqlik təşkil edən Azərbaycanın təşəbbüsü ilə yaradılan iki və üçtərəfli formatlar vasitəsilə Avropa və müsəlman ölkələri ilə əlaqələrin genişlənməsində maraqlı olan, tolerant ölkə kimi multikulturalizm ənənələrini əsrlərdən bəri qoruyub yaşadan ölkəmizdə dinlərarası, mədəniyyətlərarası dialoqların, forumların, sammitlərin təşkili bəşəri dəyərlərə sadiqlik nümunəsidir.

Azərbaycan ev sahibliyi etdiyi BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunda, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda və Bakı Humanitar forumlarında müzakirə olunan əsas məsələlər cəmiyyətlərdə birgə yaşayış qaydalarının vacibliyini aktuallaşdırır. Həmin tədbirlərdə qeyd olunduğu kimi dini radikalizmə, islamofobiyaya qarşı mübarizənin gücləndirilməsi göstərir ki, dünyada əmin-amanlığın təminatı üçün bütün xalqlar səylərini əsirgəməməlidir.

Sivilizasiyalar arasında müsbət rolu ilə fərqlənən, Asiya ilə Avropanı birləşdirən coğrafi, mədəni, siyasi körpü olan Azərbaycanda dini, milli zəmində heç bir problem yoxdur və respublikamızda yaşayan bütün vətəndaşlar, müxtəlif dinlərə məxsus millətlər həmrəyliyə öz töhfələrini verirlər.

"Azərbaycanın təşəbbüsü ilə İƏT-in Gənclər Forumu, Əmək Mərkəzi və Jurnalistlər Assosiasiyası yaradılmışdır. Eyni zamanda, Azərbaycan ISESCO-nun fəal üzvüdür. ISESCO İslam aləminin təhsil, elm, mədəniyyət təşkilatıdır və bu təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir. Beləliklə, ISESCO və bütün müsəlman aləmi Azərbaycana daim diqqət və dəstək göstərir. Bir neçə il bundan əvvəl ISESCO tərəfindən Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilmişdir və bir il ərzində ölkəmizdə, Bakıda bir çox tədbirlər keçirilmişdir" söyləyən Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qəbul olunan qətnaməni, Kontakt Qrupunun yaradılmasını müsəlman ölkələrinin birlik və həmrəyliyinin nümunəsi adlandırır. Yəni İslam həmrəyliyi sadəcə olaraq bir şüar deyil, müsəlman dövlətlərinin əsas fəaliyyət istiqamətlərindəndir. Dünyada dözümsüzlük, islamofobiya, ksenofobiya, antisemitizm amillərinin artdığı bir zamanda Bakıda keçirilən bütün tədbirlərdə əsas çağırış budur ki, dinlərarası münasibətlərin bəşəri dəyərlər əsasında təkmilləşdirilməsi hər bir ölkə üçün önəmlidir. Azərbaycanda "Multikulturalizm İli", "İslam Həmrəyliyi İli" elan olunması, Birinci Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi təsdiqlədi ki, alternativi olmayan multikulturalizm Azərbaycanda dövlət siyasəti, həyat tərzidir. Azərbaycan sivilizasiyalar, dinlər və qitələr arasında nadir xidmətləri ilə fərqlənir. Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısında İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin iştirakı Azərbaycanın sivilizasiyalararası həmrəyliyə verdiyi töhfədir.

Prezident İlham Əliyevin müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirləri və diplomatik nümayəndəliklərinin rəhbərləri ilə görüşü ölkəmizin İslam aləminin ayrılmaz parçası olduğunun təsdiqidir. Müqəddəs Ramazan ayında belə görüşlərin ənənəvi xarakter daşıması müsəlman ölkələrinin İslami dəyərlərə bağlılığının ifadəsidir. "Bildiyiniz kimi, müsəlman ölkələri ilə bizim çox sıx əməkdaşlığımız var. Siyasi sahədə fəal dialoq aparılır. Əlbəttə, çox istərdik ki, iqtisadi sahədə daha da fəal əməkdaşlıq olsun. Ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu, digər sahələrdə birgə fəaliyyətimiz xalqlarımız üçün çox böyük əhəmiyyət kəsb edə bilər. Müsəlman ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərimdə bu məsələlər daim gündəlikdədir. Əlbəttə, biz çox istərdik ki, təmsil etdiyiniz ölkələrdən olan şirkətlər Azərbaycanda müxtəlif layihələrdə daha fəal iştirak etsinlər" söyləyən cənab İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatına daxil olan ölkələrlə beynəlxalq əməkdaşlığın möhkəmlənməsində başlıca amil olan siyasi, iqtisadi, ticari, turizm əlaqələrinin genişlənməsinə xüsusi diqqət göstərildiyini vurğulayıb. Bildirib ki, ikitərəfli formatda əlaqələrin uğurlu inkişafı üçün çox yaxşı şərait və imkanlar var.

İƏT üzvlərinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı müsəlman ölkələrinin dəstəyini yüksək dəyərləndirən cənab İlham Əliyev münaqişə ilə bağlı qəbul olunan qətnamələrin hələ də kağız üzərində qalmasını ikili standartlardan yaranan ədalətsizlik adlandıraraq vurğulayıb ki, işğalçıya kifayət qədər təzyiq göstərilməməsi separatizmə, etnik təmizləmə siyasətinə, terrora, dini ayrı-seçkiliyə loyal münasibətdir. "Beynəlxalq təşkilatlarda bizə göstərilən dəstəyə görə müsəlman ölkələrinə bir daha təşəkkürümü bildirirəm" söyləyən cənab İlham Əliyev vurğulayıb ki, belə münaqişələrin həllində İslam həmrəyliyinin gücləndirilməsi çox vacib və gündəlikdə duran əsas məsələlərdən biridir.

Görüşdə Azərbaycanda akkreditasiya olunmuş müsəlman ölkələrinin səfirləri və diplomatik missiyalarının rəhbərləri adından çıxış edən Fələstin Dövlətinin Azərbaycandakı səfiri Nasir Əbdül Kərim Əbdül Rəhim belə tədbirləri İslamın xeyirxah dəyərlərinə çağırış adlandırdı.

Müstəqilliyinin ilk illərində ölkəmizin üzləşdiyi çətinliklərdən söz açan fələstinli səfir vurğulamışdır ki, ölkə rəhbərliyinin müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycan gözlənilən təhlükələrin öhdəsindən uğurla gələrək qədim Odlar Diyarını inkişaf etmiş, müasir, gələcəyə doğru sürətlə addımlayan bir ölkəyə çevirmiş, insanlara sülh, əmin-amanlıq bəxş edən İslam irsini və mədəniyyətini də qoruyub.

"Müsəlman ümməsinin əziz, ayrılmaz və vacib bir üzvü kimi, Azərbaycan müsəlman aləminin Dağlıq Qarabağdan tutmuş Əl-Qüds, Əl-Şərif, Kəşmirə qədər və digər işğal olunmuş müsəlman əraziləri ilə bağlı məsələlərdə ədalətli haqq işini böyük səylə dəstəkləmiş, habelə bu günün çoxsaylı çağırışları ilə mübarizədə birgə səylərin önündə olmuşdur. Bunlardan biri də məkrli və yanlış məfhum olan islamofobiya ilə mübarizə aparmaqdır" söyləyən diplomat ölkəmizin multikulturalizm dəyərlərinin təbliği istiqamətində ciddi səylərini də qiymətləndirib.

Görüşdə iştirak edən diplomatların ümumi fikri bu olmuşdur ki, müsəlman ümməsi Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə əsasən həllini dəstəkləyir və bu məsələdə Azərbaycanın yanındadır, Müsəlman ölkələri BMT Təhlükəsizlik Şurasına qəbul etdiyi bütün qətnamələrin seçmə üsulu ilə yox, bərabər şəkildə icrası üçün çağırış edir. Belə bir əminlik ifadə edilmişdir ki, islamofobiya adı ilə İslamın adına ləkə gətirən pis, bədxah və cahil qüvvələri məğlub edəcəyi və bununla da bəzi ölkələrimiz üzərində olan qara buludların çəkiləcəyi, habelə qardaş ölkələrimiz arasında birlik və harmoniyanı bərqərar etmək üçün fikir ayrılıqlarının aradan qaldırılacağı gün bəşəri dəyərlərin qələbəsi kimi tarixə yazılacaq.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Möhtərəm cənab Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Zati-alinizə ən xoş təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə firavanlıq arzu edirəm.

Dərin hörmətlə,

**XVI Karl Qustav**
İsveçin Kralı

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

Zati-aliləri möhtərəm Prezident.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi və ölkənizin qardaş xalqını ürəkdən təbrik etmək, Sizə ən xoş və səmimi arzularımı bildirmək mənə böyük məmnuniyyət bəxş edir.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycanın sosial-siyasi həyatında reallaşdırılan əsaslı islahatları, ölkənizin iqtisadi potensialının və nüfuzunun artırılması işində qazanılan sanballı uğurları məmnuniyyətlə müşahidə edirik.

Əminəm ki, bizim birgə səylərimiz sayəsində Özbəkistan ilə Azərbaycan arasında strateji tərəfdaşlıq, ənənəvi dostluq və qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq əlaqələri bundan sonra da xalqlarımızın rifahı naminə inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək Sizə uzun ömür, möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, firavanlıq və davamlı inkişaf arzu edirəm.

Hörmətlə,

**Şavkat Mirziyoyev**
Özbəkistan Respublikasının Prezidenti

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Zati-aliləri.*

*28 May - Respublika Günü münasibətilə Sizə və Sizin şəxsinizdə qardaş Azərbaycan xalqına Əfqanıstan xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.*

*Mart ayında Sizinlə Qlobal Bakı Forumu çərçivəsində görüşməkdən, Azərbaycan Respublikası ilə Əfqanıstan İslam Respublikası arasında münasibətlərin müxtəlif sahələrinə dair müzakirələr aparmaq imkanı əldə etməkdən çox məmnun oldum. Bu gün əlaqələrimizin daha da inkişaf etməsini görməkdən də çox məmnunam.*

*Ölkələrimiz arasındakı dostluq əlaqələrinin və əməkdaşlığın genişlənməsi arzumu ifadə etməklə yanaşı, inanıram ki, Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə daha böyük inkişafa nail olacaqdır.*

*Zati-aliləri, Sizə cansağlığı, müvəffəqiyyət, dost Azərbaycan xalqına isə səadət və tərəqqi arzulayıram.*

*Dərin hörmətlə,*

**Məhəmməd Əşrəf Qani**
Əfqanıstan İslam Respublikasının Prezidenti

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Zati-aliləri.*

*Respublika Günü münasibətilə Sizə, Azərbaycan dövlətinə və xalqına Hindistan Hökuməti və xalqı adından və şəxsən öz adımdan səmimi salamlarımı və təbriklərimi çatdırıram.*

*Hindistan ilə Azərbaycan arasında tarixi əlaqələrə və müxtəlif sahələrdə əməkdaşlığa əsaslanan dostluq münasibətlərinin davamlı olaraq inkişaf etdiyini vurğulamaqdan məmnunluq duyuram. Əminəm ki, ikitərəfli əlaqələrimiz gələcək illərdə daha da möhkəmlənəcək və müxtəlif sahələrə yönələcəkdir.*

*Zati-aliləri, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə tərəqqi və firavanlıq arzulayıram.*

*Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.*

*Dərin hörmətlə,*

**Ram Nat Kovind**
Hindistan Respublikasının Prezidenti

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İLHAM ƏLİYEVƏ

*Zati-aliləri.*

*Dost Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi İraq Respublikasının Hökuməti və xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Bu xoş fürsətdən istifadə edərək ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə olan inamımızı bildirir, Sizə davamlı müvəffəqiyyətlər və işlərinizdə uğurlar arzulayıram.*

*Xahiş edirəm, ən dərin ehtiramımı qəbul edin.*

*Hörmətlə,*

**Adil Abd Əl-Mehdi**
İraq Respublikasının Baş naziri

# YAP-ın ümumrespublika müşavirəsi keçirildi

**_Baş nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov bildirdi ki, Azərbaycanın imkanları genişləndikcə, maliyyə resursları artdıqca insanların rifahının daha da yaxşılaşdırılması üçün bundan sonra da mühüm addımlar atılacaq_**















Mayın 18-də Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında partiyanın rayon və şəhər təşkilatlarının ümumrespublika müşavirəsi keçirildi.

Baş nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov ötən müddət ərzində Azərbaycanın ictimai-siyasi həyatında uğurların davam etdiyini, iqtisadiyyatın artdığını, ictimai-siyasi sabitliyin möhkəmləndiyini önə çəkərək qeyd etdi ki, ötən dövrün mənzərəsini Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında geniş təhlil edib: “Ölkəmizin iqtisadi inkişafı davam etməkdədir. Ümumi iqtisadi inkişafın artım tempi yüksəlir. Bu ondan xəbər verir ki, Azərbaycan iqtisadiyyatında Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar öz bəhrəsini verməkdədir. İqtisadi inkişaf tempi müxtəlif sahələrdə özünü göstərir. Bütövlükdə Azərbaycanın iqtisadiyyatı, ümumi daxili məhsul artıb. Ən başlıca cəhət ondan ibarətdir ki, dövlətimizin başçısı İlham Əliyevin vurğuladığı kimi, iqtisadiyyatın şaxələndirilməsi nəticəsində qeyri-neft sektorunda inkişafın sürəti, xüsusilə sənaye sahəsində artım tempi digər sahələrlə müqayisədə xeyli yüksəlib. Qeyri-neft sektorunun inkişafı neft sektorunun inkişafından, bütövlükdə ümumi daxili məhsulun inkişafından daha yüksək templə artmaqdadır. Bu, onun göstəricisidir ki, Azərbaycanda sənaye istehsalı, o cümlədən kənd təsərrüfatında məhsuldarlıq artmaqdadır. Eləcə də ölkəmizin sənaye məhsullarının ixracında artım vardır. Ən başlıcası isə Azərbaycanda iqtisadiyyatın artması ilə dövlətin büdcəsinə daxil olan vəsaitlər artır ki, bunun nəticəsində də əhalinin sosial rifahının daha yaxşılaşdırılması istiqamətində vacib addımlar atılır.”

Ə.Əhmədov qeyd etdi ki, bu ilin əvvəlindən dövlət başçısının müvafiq sərəncamları nəticəsində əhalinin müxtəlif kateqoriyalarının sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən addımlar davamlı olub. Sosial sahədə son bir ildə, xüsusilə 2019-cu ilin arxada qalan aylarında atılan inqilabi addımlar ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanır. Bu kimi biri-birindən önəmli addımlar insan amilinin dövlətin həyata keçirdiyi siyasətin əsasında dayandığına bir daha işıq salır: “Bu ilin əvvəlində minimum əməkhaqqı təxminən 40 faiz artırıldı. Bunun nəticəsində 600 min insanın əməkhaqları təxminən 40 faiz artdı. Minimum pensiyalar da 40 faiz artırıldı. Eləcə də dövlət başçısının Sərəncamı ilə sosial müavinətlər və təqaüdlər orta hesabla iki dəfə artırıldı. Bu isə o deməkdir ki, ölkəmizdə sosial ədalət prinsipi qorunur, ilk növbədə həssas təbəqələrə qayğı göstərilir. Dövlət başçısı problemli kreditlərin həlli ilə bağlı Fərman imzalamaqla 800 min insana dəstək verdi. Eləcə də məcburi köçkünlər üçün aylıq sosial müavinətin, tələbə təqaüdlərinin artırılması və digər addımlar bütövlükdə 3 milyona yaxın insanı əhatə edir. Azərbaycanda 2.5 milyona yaxın ailə var və demək olar ki, sosial sahədə ilin əvvəlindən atılan addımlardan təxminən hər bir ailə bu və ya digər dərəcədə faydalanır.”

YAP Sədrinin müavini onu da bildirdi ki, ölkəmizdə iqtisadi inkişaf nəticəsində əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün əlavə imkanlar yaranır və bu imkanlar da insanların sosial müdafiəsinin gücləndirilməsinə sərf olunur.

“Xüsusi diqqət göstərilən təbəqələrdən biri də məcburi köçkünlərdir” söyləyən Ə.Əhmədov qeyd etdi ki, dövlət tərəfindən onlar üçün əlavə tədbirlər görülür, sosial müdafiələrinin gücləndirilməsi istiqamətində davamlı addımlar atılır. Plan və istək bundan ibarətdir ki, məcburi köçkünlər üçün tikilən evlərin sayı daha da artırılsın. Təbii ki, Azərbaycanın imkanları genişləndikcə, maliyyə resursları artdıqca ölkə Prezidenti İlham Əliyevin vurğuladığı kimi, insanların rifahının daha da yaxşılaşdırılması üçün bundan sonra da mühüm addımlar atılacaq: “Bu addımlar nəticəsində insanlar daha da yaxşı yaşayacaq, onların həyatının keyfiyyəti yüksələcək. Vətəndaşların yüksək rifahının təmin edilməsi dövlətin siyasətinin əsası kimi hər addımda özünü qabarıq şəkildə büruzə verir. Ölkə əhalisi tam əmin ola bilər ki, dövlətimiz və Prezidentimiz İlham Əliyev insanların rifahının yüksəlməsi naminə nə mümkündürsə edir və bundan sonra da edəcək. Beləliklə, görülən genişmiqyaslı işlər davamlı olacaq. Atılan addımlardan, imzalanan Fərman və sərəncamlardan, təsdiqlənən Dövlət proqramlarından Azərbaycan hökumətinin həyata keçirdiyi sosial siyasətin mahiyyəti daha aydın şəkildə özünü büruzə verməkdədir. Bu, son artımlar deyil, Azərbaycanın iqtisadiyyatı inkişaf etdikcə əməkhaqqı, pensiya və müavinətlər də artırılacaq.”

Ə.Əhmədov düşünülmüş və məqsədyönlü siyasətin, təkmil sosial islahatların nəticəsi olaraq Azərbaycanın uğurlarının beynəlxalq maliyyə qurumlarının hesabatlarında da öz əksini tapdığını bildirdi. Qeyd etdi ki, Azərbaycanın 10 ən islahatçı ölkə arasında yer alması inkişaf strategiyamızın uğurlarındandır.

Bu məqam da diqqətə çatdırıldı ki, ölkəmizin qazandığı uğurları gözü götürməyən qüvvələr olduğunu unutmamalı, bu dairələrin qarayaxma kampaniyasının qarşısı alınmalıdır. Azərbaycanın bugünkü reallıqları aparılan çirkin kampaniyalara tutarlı cavabdır. Əsas məqsədimiz partiyanın bütün üzvlərinin səylərinin birləşdirilməsi fonunda həyata keçirilən düşünülmüş və gələcəyə hesablanmış siyasətimizin uğurlarını daha geniş şəkildə təbliğ etməkdir.

Müşavirədə Yeni Azərbaycan Partiyasının icra katibinin müavinləri - Milli Məclisin ictimai birliklər və dini qurumlarla iş komitəsinin sədri Siyavuş Novruzov və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı iştirak edirdilər.

**Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
**_“İki sahil”_**



# Təkmil sosial-iqtisadi islahatlar öz bəhrəsini verir

## Beynəlxalq təşkilatlar ölkəmizdəki islahatları ona görə yüksək qiymətləndirirlər ki...

**Azərbaycanda həyata keçirilən islahatlar, uğurla icra edilən regional inkişaf proqramları ölkəmizin hərtərəfli inkişafına səbəb olmaqla bizi nəinki Cənubi Qafqazın, hətta MDB məkanının lider dövlətinə çevirib. Qürurverici hadisədir ki, bu inkişaf tempini nüfuzlu beynəlxalq reytinq təşkilatları da hesabatlarında qeyd edirlər. Belə ki, Dünya Bankı tərəfindən hazırlanan "Doing Business-2019" hesabatında Azərbaycan 190 ölkə arasında 32 pillə irəliləyərək 57-ci pillədən 25-ci (o cümlədən biznesə başlamaq üzrə 18-ci pillədən 9-cu, tikinti üçün icazələrin alınması üzrə 161-ci pillədən 61-ci, elektrik təchizatı şəbəkələrinə qoşulmaya görə 102-ci pillədən 74-cü, əmlakın qeydiyyatı üzrə 21-ci pillədən 17-ci, kreditlərin alınmasına görə 122-ci pillədən 22-ci, kiçik investorların maraqlarının qorunmasına görə 10-cu pillədən 2-ci, vergilərin ödənilməsi üzrə 35-ci pillədən 28-ci, müflisləşmənin həllinə görə 47-ci pillədən 45-ci) yerə yüksəlmişdir.**

İcmaldan məlum olur ki, biznesə başlamaq sahəsində ("Doing Business" üzrə bal 96,14) əgər əvvəl onlayn qeydiyyat üçün elektron imza tələb edilirdisə, indi buna ehtiyac yoxdur. Eləcə də əvvəllər tələb edilən işçilərin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində qeydiyyatdan keçirilməsinə də gərək qalmayıb. İndi işçilər qeydiyyat tamamlandıqdan dərhal sonra fəaliyyətə başlaya bilərlər. Onlayn qeydiyyat üçün tələb edilməyən prosedurlar sırasında "ASAN İmza" da var. Asanlaşdırılan prosedurlardan digərləri isə Vergilər Nazirliyinin saytında FİN nömrə daxil etməklə onlayn qeydiyyatın vahid platformada aparılması, həmçinin işə götürüləcək şəxslər barədə məlumatların onlayn qeydiyyat ərizəsinə daxil olunmasıdır. Daha vacib bir məqam: bu gün Azərbaycanda biznesə başlamaq üçün bir prosedur, yarım gün və 0 manat lazımdır. Halbuki əvvəl bu iş üçün 3 prosedur, 3,5 gün və 90 manat xərc tələb edilirdi.

Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyevin elan etdiyi və sürətlə həyata keçirdiyi sosial-iqtisadi islahatlar artıq öz bəhrəsini verməkdədir. Xüsusilə bu islahatlar bazar iqtisadiyyatı prinsipləri əsasında hazırlanır və əlverişli biznes mühitinin yaradılmasını, insan kapitalının inkişaf etdirilməsini, sahibkarlara daha yaxşı şəraitin təmin olunmasını, dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsini və digər məsələləri nəzərdə tutur. Bu gün Azərbaycan dövlətinin rəhbəri cənab İlham Əliyevin iqtisadi hədəfi neftdən asılı olmayan güclü iqtisadiyyat formalaşdırmaqdır. Məhz son illər ərzində qəbul olunan və icra edilən yol xəritələri, digər qərarlar əsasən bu məqsədə xidmət edir.

Çox önəmli hadisədir ki, Azərbaycan mühüm transmilli enerji layihələri həyata keçirir, bu layihələrin icrası qarşıdan gələn illərdə Azərbaycanın əhəmiyyətinin daha da yüksəlməsini və maliyyə imkanlarının artmasını təmin edəcəkdir. Çox yaxın gələcəkdə ölkəmizə valyuta axını bizə imkan verəcəkdir ki, ən müasir istehsalat sahələri quraq, dünya bazarlarını "Made in Azerbaijan" brendləri ilə zənginləşdirək.

Təbii ki, kənd təsərrüfatı sahəsində yeni islahat mərhələsinin məqsədi ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün ciddi potensiala malik olmaqdır. Bunun üçün biznes mühitinin yaxşılaşdırılmasını, kənd təsərrüfatı məhsullarının istehsal imkanlarının artırılmasını, bazar infrastrukturunun təkmilləşdirilməsini və istehsalçıların bazara çıxışının asanlaşdırılması prioritet məsələ kimi irəli sürülüb.

Azərbaycan iqtisadiyyatında turizmin inkişafı, yeni turizm mərkəzlərinin yaradılması, otellərin tikintisi, viza rejiminin sadələşdirilməsi, xidmətin keyfiyyətinin yüksəldilməsi də iqtisadi islahatların səmərəli şəkildə aparılmasının göstəricisidir. Qeyd edək ki, turizm bir çox ölkələrin gəlir sahəsi kimi inkişaf edərək dövlət büdcəsinin formalaşmasında önəmli rol oynayır. Məsələn, Avropa ölkələri hər il bu sahədən təqribən 140-150 milyard dollar gəlir əldə edirlər. Qardaş Türkiyənin bu istiqamətdə də böyük uğurları var. Belə ki, 2018-ci ildə ölkənin turizmdən qazancı təqribən 30 milyard dollar həcmində hesablanıb.

Faktlar da belə deməyə əsas verir ki, əgər 2017-ci ildə ölkəmizə gələn turistlərin sayı 20 faiz, 2018-ci ildə 22 faiz, bu ilin birinci rübündə isə 15 faiz artıbsa, deməli, artıq Azərbaycan dünyada turizm ölkəsi kimi tanınır. Hələ onu demirik ki, mayın 29-da UEFA Avropa Liqasının finalının Bakıda keçirilməsi ökəmizə gələn turistlərin sayını daha da artıracaqdır.

Qürur doğuran məqamdır ki, yalnız yay aylarında deyil, ilin digər fəsillərində də Azərbaycana gəzməyə və istirahətə gələnlərin sayı çoxalıb. Cari ilin yanvar-aprel ayları ərzində Azərbaycana dünyanın bir çox ölkələrindən 400 mindən çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Hazırda respublikamızda turizmin daha da inkişaf etdirilməsi üçün bir neçə istiqamət üzrə tədbirlər görülür. Bakının kommunikasiya və marketinq planı hazırlanır, turizm brendi formalaşdırılır. Paytaxtın marketinq strategiyası, xüsusən də biznes strukturları ilə əlaqələr genişləndirilir.

Ölkəmizin iqtisadi inkişafına ciddi şəkildə dəstək olan digər bir sahə isə müasir texnologiyaların inkişafı və Azərbaycanın kosmik dövlətə çevrilməsidir. Bu gün Azərbaycan dövləti MDB məkanında kosmos ölkəsi olan 3 ölkədən biridir. Bu sahədə liderlik əldə etməyimiz bizim bir çox sahələrdə müstəqilliyimizi tamamilə təmin edib. Eyni zamanda, biz ikinci peykimizi fəzaya göndərməklə daha geniş kosmik informasiya ixracatçısına çevrilmiş olduq.

Ölkəmizin iqtisadi gücünü dünyaya nümayiş etdirən digər önəmli sahə ixrac potensialımızın daha da genişləndirilməsidir. Son iki ildə Azərbaycanın ixrac potensialı 42 faiz artmaqla MDB məkanında ilk beşliyə düşüb. Daha çox qeyri-neft məhsullarının ixracı ölkəmizin neftdən asılılığını ciddi şəkildə azaldıb. Bu mənada regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının uğurla icrası bölgələrin sürətli inkişafı, bütün infrastrukturun müasir tələblər çərçivəsində yenidən qurulmasına gətirib çıxarıb.

Qeyri-neft sektorunun inkişafı məsələsində çox prinsipial məsələ Azərbaycan dövlətinin sahibkarlara göstərdiyi təmənnasız dəstəkdir. Eyni zamanda, biznes mühitinin yaxşılaşması üçün bütün bürokratik əngəllərin aradan qaldırılması reallaşıb. "ASAN xidmət" kimi müasir bir sistemin məhz ölkəmizdə formalaşması bütün vətəndaşlara sosial xidmətlərin yüksək səviyyədə həyata keçirilməsinə, azad və güclü sahibkarlar ordusunun yaranmasına şərait yaradıb.

Təbii ki, güclü iqtisadi inkişafın məntiqi nəticəsi firavanlığı təmin edən sosial siyasətin davamlılığıdır. Məhz 2019-cu il ölkə vətəndaşlarının sosial rifah ili kimi başlayıb və durmadan davam edir. Belə ki, 2019-cu ilin əvvəlindən başlayaraq əhalinin sosial təminatının daha da gücləndirilməsi və rifah halının yüksəldilməsi istiqamətində ciddi tədbirlər həyata keçirilib. Azərbaycan Prezidentinin müvafiq Fərman və sərəncamları ilə maaşların, pensiyaların, sosial müavinətlərin, müxtəlif istiqamətlər üzrə ödənişlərin həcmi kəskin şəkildə artırılıb. Sosialyönümlü sərəncamların həyata keçirilməsi ilə 3 milyondan çox insan öz maddi vəziyyətini yaxşılaşdırıb. Nəticədə ölkədə yoxsulluğun və işsizliyin səviyyəsi minimuma endirilib. Ən mühümü isə sosial infrastrukturun yenidən qurulması işi sürətlənib.

2019-cu ilin xoş olan sosial mənzərəsi isə belədir: Şəhid ailələrinə kompensasiyaların verilməsinə başlanılması, müharibə əlillərinin mənzil problemlərinin həlli, yeni köçkün qəsəbələrinin istifadəyə verilməsi, problemli kreditlərə görə kompensasiyaların verilməsi, səhiyyə, təhsil, mədəniyyət müəssisələrinin müasir dövrün tələblərinə uyğun yenidən qurulması, idmanın inkişafı, olimpiya mərkəzlərinin, yeni idman qurğularının tikintisi, paytaxtda və bölgələrdə aparılan abadlıq işləri, parkların, xiyabanların salınması, insanların rahatlığının təmin olunması üçün həyata keçirilən çoxsaylı digər tədbirlər, icbari tibbi sığorta, əhalinin tibbi müayinəsinin təşkil edilməsi, aztəminatlı ailələr üçün sosial evlərin tikilməsi, - özünüməşğulluq proqramının geniş tətbiqi və s.

Təbii ki, bu uğurların müəllifi Prezident İlham Əliyevdir. Məhz cənab Prezidentin qətiyyətli sosial siyasəti, xalqsevərliyi və xarizmatik idarəetmə bacarığı ölkəmizi daha böyük hədəflərə çatdıracaq.

**Elçin Zaman,**
***"İki sahil"***

# BSU Nurlana Əliyeva ilə bağlı yayılan informasiyanı böhtan adlandırdı



Dünəndən sosial şəbəkələrdə Bakı Slavyan Universitetinin (BSU) rektoru, professor, YAP Qadınlar Şurasının sədri Nurlana Əliyeva ilə bağlı ağlasığmaz ifadə və fikirlər səsləndirilir.

Bu haqda Milli.Az-a BSU-nun mətbuat xidmətindən məlumat veriblər. Səbəb kimi may ayının 16-da rektorun universitetin akt zalında tələbələrlə görüş zamanı guya müxalifətin ünvanına təhqiramiz ifadələr səsləndirməsi göstərilir. İlk növbədə onu qeyd edək ki, bir azərbaycanlı xanım, ağbirçək ana olan Nurlana Əliyevanın tələbələrlə hər görüşü daha çox övlad-valideyn münasibətləri çərçivəsində, səmimiyyət və inam müstəvisində baş tutur. Bu görüşlərdə milli mənəvi dəyərlər, əxlaq, etika, vətənpərvərlik, ədalət, düzlük, insanpərvərlik önə çəkilir. Ümumiyyətlə, 30 ildən artıq ictimai-siyasi fəaliyyətlə məşğul olan, xalqını sevən, onunla ünsiyyətdən qürur duyan xanım professorun iclasda siyasi əqidəsinə, dünyagörüşünə görə kimlərisə təhqir etməsi, yaxud kimlərinsə ünvanına aşağılayıcı ifadələr işlətməsi mümkünsüz bir işdir.

N.Əliyeva indiyədək heç bir vaxt Azərbaycan vətəndaşları arasında fərq qoymamış, sosial mənşəyindən, milli-etnik mənsubiyyətindən, iqtidar və yaxud müxalifət düşərgəsində təmsil olunmasından asılı olmayaraq bütün insanlarımıza bu torpağın, yurdun bərabərhüquqlu vətəndaşları kimi baxmışdır. Torpağımızın hər qarışı, Vətənimizin hər bir guşəsi onun üçün əzizdir. Bunu onun keçdiyi həyat yolu, gündəlik fəaliyyəti də təsdiq edir. Mayın 7-də xanım-rektorun təşkilatçılığı və rəhbərliyi altında BSU-nun professor -müəllim heyətinin Cocuq Mərcanlıya səfəri, Sabirabad rayonunda Milli Qəhrəmanlarımızın abidələrinin ziyarət edilməsi, ümumiyyətlə, universitetdə hər həftə milli mənəvi dəyərlərimizlə bağlı təşkil olunan tədbirlər N.Əliyevanın rektor, pedaqoq, vətəndaş fəaliyyətinin göstəricilərinə nümunə sayıla bilər.

Əslində, N.Əliyevanın BSU-ya gəldiyi ilk gündən məqsədi gənclərin patriotizm, milli-vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan xalqının tarixi ənənələrinin, mədəniyyətinin, ədəbiyyatının, bütövlükdə mənəvi dəyərlərinin gənclərə ötürülməsi olmuşdur. Qapısı hər zaman insanların üzünə açıq olan rektor hər bir insanla səmimi dialoqa girəndə, tələbələrə bir ağbirçək ana kimi öyüd-nəsihət verəndə ilk növbədə əxlaq və etik normalar, milli mənəvi dəyərlər prizmasından çıxış edir. Təbii ki, belə bir ziyalı xanımın, pedaqoqun, tanınmış dövlət xadiminin siyasi baxışlarına, ideoloji düşüncəsinə görə kimlərisə təhqir etməsi, yaxud onlar haqqında nalayiq ifadələr işlətməsi barədə informasiyalar şər və böhtandan başqa bır şey ola bilməz. Təkrar edirik, iqtidar-müxalifət mövqeyində durmasından asılı olmayaraq bu ölkənin bütün vətəndaşlarına sayğı göstərmək bizim borcumuzdur. Dörd mindən artıq tələbənin qarşısında tez-tez çıxış edən rektor hər dəfə cəmiyyətdə həmrəylik, birlik, vəhdətin zəruriliyini vurğulayır, müharibə şəraitində yaşayan ölkəmizdə insanlarımızın bir yumruq kimi birləşməsinin vacibliyini önə çəkir. Belə olduğu halda onun dilindən cəmiyyətin müəyyən bir təbəqəsinin ünvanına nalayiq ifadənin işlədilməsi mümkünsüzdür.

Fikrimizcə, bütün bunlar ölkəmizdə narazılıq, qarşıdurma yaratmaq istəyənlərin, Azərbaycanda sabitliyi, qarşılıqlı etimad və inamı pozmaq arzusunda olanların çirkin əməlidir.

BSU mətbuat xidməti olaraq bəyan edirik ki, BSU-nun rektoru, professor Nurlana Əliyeva heç kəsin ünvanına təhqiramiz, nalayiq ifadə işlətməyib, bu kampaniya sadəcə olaraq şər və böhtandır. Siyasi mövqeyindən asılı olmayaraq bu ölkənin bütün vətəndaşları bizim üçün eyni dərəcədə əzizdir. Sosial şəbəkə istifadəçilərindən bir daha xahiş edərdik ki, yoxlanılmamış, dəqiqləşdirilməmiş informasiyaları ictimaiyyətə çatdırmasınlar, əks təqdirdə bu, hamının başa düşdüyü qərəzə çevrilir.

# 2019-2020-ci illər üzrə birgə Fəaliyyət Planının təqdimat mərasimi keçirildi

**Baş nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-icra katibi Əli Əhmədov qeyd etdi ki, Yeni Azərbaycan Partiyası ilə Mədəniyyət Nazirliyinin Azərbaycanın dövlətçilik ənənələrinin yaşadılması məqsədilə vətənpərvərlik və mədəni dəyərlərə hörmət hisslərinin gücləndirilməsinə dair birgə əməkdaşlığı mədəni irsimizin təbliğinə böyük dəstək olacaq**

**Dünən Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında YAP və Mədəniyyət Nazirliyinin Azərbaycanın dövlətçilik ənənələrinin yaşadılması məqsədilə vətənpərvərlik və mədəni dəyərlərə hörmət hisslərinin gücləndirilməsinə dair 2019-2020-ci illər üzrə birgə Fəaliyyət Planının təqdimat mərasimi keçirildi.**














Tədbiri giriş sözü ilə açan Baş nazirin müavini, YAP Sədrinin müavini-icra katibi Əli Əhmədov bildirdi ki, həm Yeni Azərbaycan Partiyasının, həm də Mədəniyyət Nazirliyinin həyatında əlamətdar günlərdən biri yaşanır: "YAP sıralarında cəmiyyətin bütün təbəqələrini birləşdirir. Yeni Azərbaycan Partiyası sıralarında 740 min üzvü birləşdirir. Bunların böyük əksəriyyətini Azərbaycan gəncliyi təşkil edir. Mədəniyyət sahəsinin nümayəndələri də YAP sıralarında geniş təmsil olunur, qarşıya qoyulan hədəflərə yüksək səviyyədə nail olunmasına öz töhfələrini verirlər."

"Ümummilli lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası təkcə ictimai-siyasi həyatımızda deyil, digər sahələrdə, o cümlədən mədəniyyət sahəsində də mühüm tədbirlər həyata keçirir" söyləyən Ə.Əhmədov vurğuladı ki, partiyamızın sıralarında ölkəmizin nüfuzlu mədəniyyət və incəsənət xadimləri birləşiblər ki, onlar ölkəmizin mədəni həyatında mühüm rol oynamaqla yanaşı, partiyamızın cəmiyyətdəki mövqeyinin güclənməsi işində də yaxından iştirak edirlər: "Yeni Azərbaycan Partiyasının fəaliyyəti çoxşaxəlidir. Partiyanın cəmiyyətdə artan nüfuzunu şərtləndirən amillərdən biri Heydər Əliyev ideyalarının təbliğatçısı olmaqdırsa, digər mühüm amil cəmiyyətin bütün təbəqələrinin hörmətini, dəstəyini qazanmasıdır. Heydər Əliyev ideyaları Azərbaycanın dünəninin, bu gününün və sabahının əsasıdır. Partiyanın hər bir üzvü Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, yeni-yeni hədəflərə doğru inamla irəliləyir."

Ə.Əhmədov bildirdi ki, birgə Fəaliyyət Planında bir sıra layihələrin həyata keçirilməsi nəzərdə tutulur: "Bu layihələr sırasına mədəni, tarixi dəyərlərimizin qorunması və təbliği, dövlətçilik ənənələrinin gücləndirilməsi, partiya üzvlərinin, o cümlədən gənclərin muzeylərə, teatrlara gedişinin təmin olunması, nüfuzlu mədəniyyət xadimləri ilə görüşlərin təşkili və s. daxildir."

O da bildirildi ki, ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasətin əsas istiqamətlərindən olan mədəniyyətə, incəsənətə, ədəbiyyata diqqət və qayğı, bu sahələrin inkişafına yönələn addımlar bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Eləcə də Heydər Əliyev Fondu tərəfindən mədəni irsimizin təbliği istiqamətində mühüm layihələr reallaşdırılır. Yeni Azərbaycan Partiyası və Mədəniyyət Nazirliyinin birgə layihələri də bu fəaliyyətə töhfədir.

YAP Sədrinin müavini qeyd etdi ki, partiya ilə Mədəniyyət Nazirliyinin birgə Fəaliyyət Planı əməkdaşlıqda yeni mərhələnin əsası kimi dəyərləndirilir. Sənəddə əksini tapan vəzifələrin uğurlu icrası bu əməkdaşlığı genişləndirməklə yanaşı, eyni zamanda, Azərbaycan mədəniyyətinin təbliğinə böyük dəstək olacaq: "Güman edirəm ki, Yeni Azərbaycan Partiyasının gəncləri, Mədəniyyət Nazirliyinin əməkdaşları qarşılıqlı əməkdaşlığın daha da möhkəmlənməsinə öz töhfələrini verəcəklər. Səylərimizin birləşdirilməsi əsasında daha çox işlər görə bilərik. Dövlətimizin başçısı İlham Əliyevin Sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi İli" elan olunub. Bu əməkdaşlıq çərçivəsində "Nəsimi İli"nin qeyd olunması ilə bağlı müəyyən tədbirlər də nəzərdə tutula bilər."

Ə.Əhmədov bir daha partiyanın Mədəniyyət Nazirliyi ilə əlaqələrinin bugünkü səviyyəsinə diqqəti yönəldərək bildirdi ki, bu günlərdə Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında gənc rəssamların sərgisinin təşkili də bu kimi mühüm məqamlara işıq saldı. Bu mühüm hadisə onu göstərdi ki, YAP gənc incəsənət adamlarının yaradıcılıq işlərinin bundan sonra da təbliğ olunmasına dəstək verməyə hazırdır. Yeni Azərbaycan Partiyasının mərkəzi qərargahında belə bir sərginin keçirilməsi partiyanın gənc rəssamlarla, mədəniyyət və incəsənət adamları ilə əməkdaşlığı kimi nəzərdən keçirilə bilər. Partiya ulu öndər Heydər Əliyevin tövsiyələrini rəhbər tutaraq mədəniyyət və incəsənətə dəstək göstərməyə çalışır. Bu sərgi də gənc rəssamların tanıdılması və təbliğ olunması baxımından əhəmiyyətli oldu.

"Bugünkü toplantı çox gözəl gələcəyi olan ənənənin qoyulmasına həsr olunub" söyləyən Ə.Əhmədov bildirdi ki, qarşılıqlı əməkdaşlıqdan qarşılıqlı fayda əldə edəcəyik.

Mədəniyyət naziri Əbülfəs Qarayev YAP-la Mədəniyyət Nazirliyinin bu günə qədər də fəal əməkdaşlıq etdiyini qeyd etdi. Bildirdi ki, doğrudan da əlamətdar hadisə yaşanır. Təcrübədə ilk dəfədir ki, Mədəniyyət Nazirliyinin fəaliyyəti cəmiyyətin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası ilə imzalanan müqavilə əsasında daha geniş şəkildə təbliğ olunacaq. Bu birlik ölkənin inkişafına, sosial rifaha, insanların mənəvi yüksəlişinə xidmət edir.

Ə.Qarayev qeyd etdi ki, partiyanın yerli strukturları ilə müxtəlif tədbirlər reallaşdırılıb. Birgə Fəaliyyət Planı isə bu əməkdaşlığın yeni mərhələsidir və bütün ölkəni əhatə edəcək: "Ulu öndər Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasının gənclər arasında geniş təbliği əsas çağırışlardan biridir. Regionlardakı Heydər Əliyev Mərkəzlərinin imkanlarından istifadə edərək YAP və Mədəniyyət Nazirliyi azərbaycançılıq ideologiyası, vətənpərvərlik, milli tarixi-mədəni irsimizin qorunması mövzularında vacib layihələr həyata keçirə bilər."

Mədəniyyət naziri Azərbaycan mədəni irsinin təbliğində Heydər Əliyev Fondunun xidmətlərindən də geniş bəhs etdi. Bildirdi ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın biri-birindən əhəmiyyətli layihələri ölkə ictimaiyyəti tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır.

Ə.Qarayev Azərbaycanın sürətlə inkişaf etdiyini önə çəkərək bildirdi ki, hər dövrün öz çağırışları, tələbləri olur. Azərbaycan bu çağırışları uğurlu, təkmil siyasəti ilə yüksək səviyyədə cavablandırır. Bu gün elə bir sahə yoxdur ki, inkişaf, tərəqqi dövrünü yaşamasın. Ulu öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi hər bir Azərbaycan vətəndaşında bu inamı günbəgün artırır ki, ölkəmiz daim inkişaf edəcək, qarşısında yeni imkanlar, üfiqlər açılacaq. Mədəniyyət Nazirliyi olaraq üzərimizə düşən vəzifəni lazımi səviyyədə yerinə yetirməyə səy göstərir, Azərbaycanın davamlı inkişafına töhfə vermək istəyirik.

Ə.Qarayev bütövlükdə hər iki təşkilatın birgə əməkdaşlığının faydalı olacağına əminliyini ifadə edərək bildirdi ki, Fəaliyyət Planının istiqamətləri müxtəlifdir. Onların kompleks şəkildə həyata keçirilməsi qarşıya qoyulan məqsədə yüksək səviyyədə nail olmağa yol açacaq.

Sonda Mədəniyyət Nazirliyində YAP ərazi ilk partiya təşkilatının sədri Vüqar Məmmədov birgə Fəaliyyət Planının əsas istiqamətləri barədə geniş məlumat verdi.

**Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

# Ukraynanın altıncı Prezidenti Vladimir Zelenskinin andiçmə mərasimi keçirilib





Mayın 20-də Ukrayna Ali Radasında bu ölkənin altıncı Prezidenti Vladimir Zelenskinin andiçmə mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Ukraynanın yeni seçilmiş dövlət başçısının andiçmə mərasimində Azərbaycanı Milli Məclisin sədri Oqtay Əsədov və ölkəmizin Ukraynadakı səfiri Azər Xudiyev təmsil ediblər.

Andiçmə mərasimində təxminən 60 ölkənin prezidentləri, hökumət başçıları və nazirləri iştirak ediblər.

Əvvəlcə Ukraynanın dövlət himni səsləndirilib.

Sonra Vladimir Zelenski Ali Radanın təntənəli iclasında əlini İncilə basaraq Ukrayna xalqına sədaqət andı içib. Ona prezident vəzifəsinə başlaması haqda Şəhadətnamə və dövlət başçısının rəsmi rəmzləri təqdim edilib. Ukrayna Prezidenti andın mətnini imzalayıb və ölkənin Konstitusiya Məhkəməsinin sədrinə verib.

Daha sonra Prezident Vladimir Zelenski mərasimdə çıxış edib. Prezident qeyd edib ki, Ukraynanın Avropaya inteqrasiya siyasəti davam etdiriləcək. "Hər kəs bilsin ki, prezidentlik dövründə xalqın rifahının yaxşılaşdırılması və dövlətin daha da güclənməsi üçün bütün enerjimi sərf edəcəyəm", - deyə Vladimir Zelenski vurğulayıb.

Andiçmə başa çatdıqdan sonra Mariinski Sarayında Ukraynanın Silahlı Qüvvələrinin iştirakı ilə dövlət bayrağının qaldırılması mərasimi və xarici ölkələrin nümayəndə heyətlərinin rəhbərləri ilə görüş keçirilib.

Azərbaycan Milli Məclisinin sədri Oqtay Əsədov Ukrayna Prezidenti Vladimir Zelenskiyə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və ali dövləti vəzifəyə seçilməsi münasibətilə təbriklərini çatdırıb. V.Zelenski də öz növbəsində təbriklərə görə Azərbaycan dövlətinin başçısına səmimi təşəkkürünü bildirib.

Daha sonra Ukraynanın yeni seçilmiş Prezidenti adından təntənəli qəbul təşkil edilib.

# Marneulidə keçirilən seçkilərdə azərbaycanlı namizəd qalib gəlib



Gürcüstanda azərbaycanlıların yığcam yaşadıqları Marneuli rayonunun icra hakimiyyəti başçısı vəzifəsinə keçirilən seçkilərdə azərbaycanlı namizəd Zaur Dargallı qalib gəlib.

AZƏRTAC Gürcüstan Mərkəzi Seçki Komissiyasına (MSK) istinadla xəbər verir ki, rayon üzrə 90 seçki məntəqəsinin 81-nin nəticələrinə görə, Zaur Darğallı səslərin 78,8 faizini qazanaraq Marneuli Rayon İcra Hakimiyyətinin başçısı seçilib.

Z.Darğallı bu seçkilərdə hakim "Gürcü arzusu-demokratik Gürcüstan" partiyasının namizədi olaraq iştirak edib.

MSK-nın məlumatına görə, digər azərbaycanlı namizədlər, müxalif "Vahid Milli Hərəkat" partiyasının namizədi Aqil Mustafayev 11,06 faiz, müxalif "Avropalı Gürcüstan" partiyasının namizədi Əhməd İmamquliyev 7,73 faiz, müstəqil namizəd Əli Bədirov isə 1,21 faiz səs toplayıb.

Qeyd edək ki, ötən gün Marneulidə keçirilmiş seçkilərdə rayon rəhbəri vəzifəsi uğrunda 15 namizəd mübarizə aparıb.

Onlardan 4-ü azərbaycanlı, qalanı isə gürcülər olub.

Rayonda seçici fəallığı 36 faizə yaxın olub.

Məlumat üçün qeyd edək ki, Zaur Darğallı bu vəzifəyə seçilənədək Kvemo Kartli bölgə qubernatorunun müavini olub.

# Azərbaycan Ordusunun genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən, müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə mayın 20-dən Azərbaycan Ordusunun müxtəlif qoşun növlərinin, qisim, birlik və birləşmələrin iştirakı ilə genişmiqyaslı əməliyyat-taktiki təlimləri başlayıb.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin gecə vaxtı hücumunun dəf edilməsi, müxtəlif istiqamətlərdə ona əks zərbələrin endirilməsi və qoşunlarımızın hücuma keçməsi təlimin əsas mövzusudur.

Təlimlərə 10 minədək şəxsi heyət, 150 tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, yaylım atəşli reaktiv sistemləri və minaatan, 35 təyyarə və helikopter cəlb olunub.

Çətin relyef, gecə vaxtı və mürəkkəb radioelektron şəraitdə müxtəlif poliqonlarda keçirilən döyüş atışlı təlimlərdə tank, aviasiya, raket və artilleriya hissələri, eləcə də digər döyüş elementləri arasında uzlaşmanın təşkili, düşmənin müdafiəsinin dərinliyində desant və xüsusi manevr qüvvələrinin tətbiqi, idarəetmə orqanlarının bacarıqlarının təkmilləşdirilməsi, o cümlədən şəxsi heyətin mənəvi-psixoloji təminatı məsələləri üzrə tapşırıqlar yerinə yetiriləcək.

Bütün fəaliyyətlər təlimlərdə iştirak edən qoşunların gecə və çətin iqlim şəraitində dəqiq qarşılıqlı əlaqəsinin təmin edilməsi ilə icra olunacaq.

Genişmiqyaslı əməliyyat-taktiki təlimləri mayın 24-dək davam edəcək.



## General-mayor Kamil Məmmədov:

# Bu gün bizim Cocuq Mərcanlıda olmağımız ordumuzun şücaəti sayəsindədir



**Azərbaycan daxili işlər nazirinin sabiq müavini, general-mayor Kamil Məmmədov Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinə səfər edib.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, general-mayor Kamil Məmmədov və Müdafiə Nazirliyinin zabitləri əvvəlcə Horadiz şəhərindəki Heydər Əliyev Mərkəzinə gələrək, Ümummilli Liderin abidəsi önünə gül dəstələri qoyublar. Sonra Horadiz şəhərində ucaldılmış "Aprel şəhidlərinə xatirə" abidəsi ziyarət edilib, şəhidlərin xatirəsi ehtiramla anılıb.

Cocuq Mərcanlı kəndinə gələn K.Məmmədov tam orta məktəbin şagird və müəllimləri ilə görüşüb, təhsil ocağında yaradılan şəraitlə tanış olub. Şagirdlər vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər.

Kamil Məmmədov Cocuq Mərcanlıda tikilən Şuşa məscidinin bənzəri olan məscidə də gəlib, burada şəhidlərin ruhuna dua oxuyub.

Daha sonra ön xətdə xidmət edən əsgər və zabitlərlə görüş keçirilib. General-mayor Kamil Məmmədov əsgərlərin xidmət şəraiti ilə tanış olub, onlarla birgə nahar edib, müşahidə məntəqəsindən işğal altında olan ərazilərimizi seyr edib. Ön xəttə xidmət edən əsgərlərə sovqatlar verilib. Kamil Məmmədov Cocuq Mərcanlıdakı polis məntəqəsində də olub, burada xidmət edən polislərlə görüşərək söhbət edib, onlara işlərində uğurlar arzulayıb.

General-mayor Kamil Məmmədov AZƏRTAC-a müsahibəsində deyib: "Cocuq Mərcanlıda görülən işlər haqqında televiziyadan, internetdən, xəbər saytlarından çox eşitmişəm, çox məlumatım var. Bu gün isə özüm bu yerlərə gəldim. Cocuq Mərcanlının Prezident İlham Əliyevin xüsusi diqqəti ilə yenidən qurulması və kənd sakinlərinin öz doğma yurdlarına qayıtması onu göstərir ki, biz işğal olunmuş bütün kənd və şəhərlərimizi azad edərək, yenidən quracağıq. Hazırda Azərbaycan Ordusu dünyanın ən güclü ordularındandır. Ordunun təminatı və döyüş ruhu çox yüksək səviyyədədir. Bu gün bizim Cocuq Mərcanlıda olmağımız da ordumuzun şücaətinin sayəsindədir. Mən Azərbaycan Ordusu ilə fəxr edirəm".

# Ekoloji problemin həlli və ətraf mühitin qorunması hər bir insanın mənəvi borcudur

**Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin www.yap.org.az saytına müsahibəsi**

*-Muxtar müəllim, məlum olduğu kimi, dövlət başçısının qərarları ilə bir sıra dövlət qurumlarında struktur islahatları aparılır. Bu baxımdan, ölkə rəhbərinin müvafiq Fərmanına əsasən Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETNS) strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı hansı tədbirlər həyata keçirilir?*

-Nazirliyin fəaliyyət istiqamətləri genişdir, amma çalışacağam ki, qısa cavab verməklə suallarınızı tam əhatə edim.Hazırda fəaliyyət istiqamətlərimizə biomüxtəlifliyin, su və torpaq ehtiyatlarının, atmosfer havasının mühafizəsi, meşələrin və yaşıllıqların qorunması və sahəsinin artırılması, tullantıların idarə olunması, təbii sərvətlərdən səmərəli istifadə, geoloji kəşfiyyat, geodeziya və kartoqrafiya, ətraf mühitin monitorinqi, hidrometeorologiya və s. məsələlər daxildir. Bu da öz növbəsində qeyd olunan sahələr üzrə idarəetməni davamlı inkişaf prinsiplərinə uyğun qurmağı zəruri edir.

Cənab Prezidentin rəhbərliyi ilə aparılan struktur islahatların əsas məqsədi də idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara və iqtisadiyyatda baş verən struktur dəyişikliklərinə adekvat uyğunlaşmanı təmin etməkdir. Bu Fərman Nazirliyin bugünkü və gələcək fəaliyyəti üçün son dərəcə əhəmiyyətlidir. Optimallaşma nəticəsində paralel strukturların aradan qaldırılması və mövcud strukturların yenidən təşkili ilə büdcə vəsaitinə qənaət olunacaqdır.

Fərmandan irəli gələn fəaliyyətlərin icra edilməsi nəticəsində vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstəriləcək, dövlət xidmətləri daha əlçatan və keyfiyyətli olacaqdır.

*-Azərbaycanda ekoloji təhlükəsizliyin təmin edilməsi dövlət siyasətinin prioritetlərindəndir. Bu istiqamətdə hansı işlər görülür?*

-Ölkəmizin zəngin təbiətini qorumaq, bərpa etmək üçün yeni layihələr həyata keçirilir. Ekoloji tarazlığın qorunması, təbii ehtiyatların, o cümlədən faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində mövcud olan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya", "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" və digər dövlət proqramları çərçivəsində mövcud ekoloji problemlərin həlli istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Uzun illər ərzində neft sənayesinin fəaliyyətindən əmələ gəlmiş tullantılar Abşeron yarımadasında bir sıra ərazilərin həddindən artıq çirklənməsinə səbəb olmuşdur. Çirklənmiş ərazilərin bərpası əhalinin sağlamlığı üçün risklərin azaldılması, Bakı şəhəri və ətraf qəsəbələrin inkişafı, təmizlənmiş ərazilərin iqtisadi dövriyyəyə qaytarılması baxımından zəruridir.

Bununla əlaqədar ETSN tərəfindən 2018-ci ildə Suraxanı rayonunda müxtəlif ərazilərdə, Heydər Əliyev Beynəlxalq Hava Limanının ərazisində uzun illər formalaşan gölməçələrin qurudulması, neft və neft şlamı ilə çirklənmiş ərazilərin təmizlənməsi işləri aparılır.

Abşeron yarımadasında tullantı və lay suları ilə çirklənmiş göllər ekoloji şəraitə ciddi təsir göstərir və Xəzər dənizinin çirkləndirilməsində mühüm rol oynayır.

Yarımadada göllər üzrə araşdırmalar aparılmış, 9 gölün (Xocasən, Binəqədi, Lökbatan, Qaradağ, Qu, Zabrat, Zığ, Bülbülə və Böyükşor)ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi prioritet hesab edilmişdir.

Bildiyiniz kimi, Abşeron göllərinin bərpası layihəsi çərçivəsində yarımadanın ən böyük gölü olan Böyükşor gölünün kompleks bərpası layihəsinin birinci mərhələsində gölün 300 hektara yaxın sahəsi bərpa edilmiş, Böyükşor bulvarı salınmış, sahil ərazilər abadlaşdırılaraq yaşıllaşdırılmış, suyun keyfiyyətinə online rejimdə nəzarət təşkil edilmişdir.

Hazırda Abşeron yarımadasında çirklənmiş torpaqların inventarlaşdırılması və qiymətləndirilməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilir. Qiymətləndirmədən sonra təmizlənmə və bərpa metodologiyaları müəyyənləşdiriləcək, çirklənmiş ərazilər torpaqların gələcək istifadə təyinatına uyğun olaraq mərhələlərlə bərpa ediləcək.

Su hövzələrinin çirkləndirilməsi ölkənin və yarımadanın əsas ekoloji problemlərindəndir. Kanalizasiya sistemlərinin və müvafiq təmizləyici qurğuların qurulması hesabına su mənbələrinin çirklənməsinin qarşısı alınmalıdır.

Azərbaycan Respublikası BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişini 2016-cı ilin oktyabrında ratifikasiya edərək 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35% azalmanı hədəf kimi götürüb. Bu öhdəliyi yerinə yetirmək üçün ətraf mühitə dost texnologiyalar tətbiq etməklə infrastruktur layihələri icra olunmalı, tükənməyən enerji mənbələrindən istifadə, enerji səmərəliliyinin artırılması və digər istiqamətlərdə müvafiq layihələr həyata keçirilməlidir.

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da iqlim dəyişmələrinin fəsadları müşahidə olunmaqdadır və təhlükəli hidrometeoroloji hadisələrin sayında, intensivliyində artım tendensiyası izlənilir. Bu sahədə ölkədə erkən xəbərdarlıq sisteminin təkmilləşdirilməsi, dəniz hidrometeoroloji şəbəkəsinin avtomatlaşdırılması, yeni proqnoz modellərinin tətbiqi ilə hidrometeoroloji xidmət sahəsinin modernləşdirilməsi nəzərdə tutulub.

Havanın çirklənməsi məsələlərinə də böyük diqqət göstərilir. Qeyd etmək lazımdır ki, yeni yaradılan müəssisələrdə ekoloji tələblərə cavab verən müasir texnologiyaların tətbiqi ətraf mühitin qorunmasında mühüm rol oynayır. Həyata keçirilmiş tədbirlər xüsusən Bakı və Sumqayıt kimi iri şəhərlərin ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində öz töhfəsini vermişdir.

Bu gün ölkəmizdə atmosfer havasının keyfiyyətinə təsir edən digər əsas amillər təsərrüfat fəaliyyəti zamanı ekoloji norma və standartlara riayət olunmamasıdır. Ümumiyyətlə, havanı çirkləndirən amillərə qarşı ciddi mübarizə aparılması qarşıya mühüm vəzifə kimi qoyulub. Havanın çirklənməsinin 70%-dən çoxu avtonəqliyyatın payına düşür. Heydər Əliyev adına Neft Emalı Zavodunda aparılan yenidənqurma və modernizasiya işləri paytaxtın ekoloji mühitinin yaxşılaşdırılmasına müsbət təsir edəcəkdir. Bu layihənin reallaşdırılması nəticəsində, o cümlədən "AVRO-5" standartlarına uyğun yanacaq istehsalı atmosferə atılmaların kifayət qədər azalmasına şərait yaradacaqdır.

Təsərrüfat obyektlərində müvafiq avadanlıqların qurulması da ciddi nəzarətə götürülmüşdür. Atmosfer havasına atılan tullantıların qarşısının alınması istiqamətində maarifləndirmə, təşviqat və inzibati tədbirlər həyata keçirilir. Ölkə ərazisində fəaliyyət göstərən ictimai iaşə obyektlərində də monitorinq və araşdırmalar aparılıb, proses bu gün də davam etdirilir.

- Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı" ilə bağlı nə kimi addımlar atılır?

-Hazırda qlobal səviyyədə ətraf mühiti çirkləndirən əsas faktorlardan biri də plastik tullantılarıdır. Heç kəsə sirr deyil ki, plastik tullantılar təbiətdə yüz illər ərzində parçalanmır, miqdarı isə ilbəil artır. Araşdırmalar göstərir ki, bu tullantılar düzgün idarə olunmadığından ətraf mühiti və sututarları çirkləndirir, kənd təsərrüfatı torpaqlarının dərin qatlarına keçərək bitkilərin normal inkişafını ləngidir və məhsuldarlığın aşağı düşməsinə səbəb olur.

Hazırda bir çox inkişaf etmiş ölkələrdə plastik qablaşdırıcılardan istifadənin azaldılması istiqamətində müvafiq qanunvericilik bazası yaradılır, onların toplanması və təkrar emalı sistemi təkmilləşdirilir. Avropa ölkələrinin bir çoxunda əsas tədbir kimi plastik torbaların ödənişli olması və ya onlara ekoloji vergi tətbiqi kimi üsullardan istifadə edilir. Bununla yanaşı, dəfələrlə istifadə oluna bilən parça torbalardan, bakteriyaların və ya digər canlı orqanizmlərin parçalaya biləcəyi çantalardan istifadənin təşviqi də görülən tədbirlər sırasındadır. Ümumilikdə isə, 40 ölkədə plastik məhsulların istifadəsi məhdudlaşdırılıb.

Ölkə rəhbəri tərəfindən verilmiş Sərəncam bu kimi məsələlərin həllində əhəmiyyətli rol oynadı. Tədbirlər Planı 2020-ci ilədək strateji baxışı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışını əhatə edir. Tədbirlər Planında plastik qablaşdırma materiallarının ətraf mühitə mənfi təsirinin azaldılması və onların alternativlərinin ölkə bazarına daxil olmasının asanlaşdırılması üçün stimullaşdırıcı tədbirlər nəzərdə tutulub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə Azərbaycanda istehsal olunan plastik qablaşdırma məhsullarının həcmi 2010-cu illə müqayisədə təqribən 2,5 dəfə artıb, eyni zamanda, 2009-cu illə müqayisədə 5 dəfə çox plastik qablaşdırıcı idxal edilib. Ölkədə hər il orta hesabla adambaşına 24 kiloqram plastik tullantı yaranır.

Plastik və polietilen qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirinin azaldılması istiqamətində başladığımız genişmiqyaslı kampaniya bu gün də davam edir.Alternativ qablaşdırma materiallarından istifadənin genişləndirilməsi məqsədilə təbliğat işləri davam etdirilir.

Tullantıların idarə olunması bütün ölkələrə xas olan problemdir və iqtisadi inkişaf dövrünü yaşayan ölkəmizdə də özünü göstərir.Balaxanı poliqonunun müasir standartlara uyğun yenidən qurulması, Bərk Məişət Tullantılarının Yandırılması və Çeşidlənməsi zavodlarının istismara verilməsi, Təhlükəli Tullantılar Poliqonunun yaradılması, poliqonların əksəriyyətinin tam bərpa olunması və çoxsaylı qeyri-qanuni tullantı sahələrinin təmizlənməsi hesabına Bakıda köklü müsbət dəyişikliklər hiss olunur.

Lakin digər ərazilərdə, xüsusilə də iri yaşayış məntəqələrində məişət tullantılarının daşınması və yerləşdirilməsi narahatlıq doğurur.



*-Bəs respublikamızda su ehtiyatlarının idarə edilməsi ilə bağlı durum hansı səviyyədədir?*

-Su ehtiyatları istənilən dövlət üçün ən qiymətli resurslardan biridir. Əhalinin artımı və iqtisadiyyatın inkişafı şəraitində dünyada su ehtiyatlarından istifadə sürətlə artır və əksər region və ölkələrdə su təminatı kəskin şəkildə pisləşir.

BMT-nin 2018-ci ildə nəşr olunmuş Dünya Su İnkişafı Hesabatına əsasən iqtisadiyyatın inkişafı və əhalinin artması səbəbindən suya olan tələbat hər il təqribən 1% artır və bu əsasən inkişaf etməkdə olan ölkələrdə daha çox özünü biruzə verir. Hazırda dünya əhalisinin 40%-dən çoxu su qıtlığı problemindən əziyyət çəkir və iqlim dəyişikliyi nəticəsində 2050-ci ilə qədər bu rəqəmin artacağı proqnozlaşdırılır.

Ölkəmizə gəlincə, araşdırmalara görə Cənubi Qafqazın ümumi su ehtiyatının yalnız 10 faizi Azərbaycanın payına düşür. Ölkənin su ehtiyatlarının təqribən 70%-i qonşu dövlətlərin ərazisində formalaşır və Azərbaycan üçün regional su resurslarının dövlətlərarası ədalətli bölünməsi məsələsi xüsusi əhəmiyyət kəsb edir. Respublikanın ərazisinin 3/4 hissəsi ölkənin ən böyük su arteriyası olan Kür çayı hövzəsinin aşağı relyefində yerləşdiyindən, çayın qonşu dövlətlərin ərazilərində çirklənməsi ekoloji gərginlik yaradır.

Dinamik iqtisadi inkişafla əlaqədar ölkədə kifayət qədər iri su istifadəçiləri yaranmışdır ki, onların da fəaliyyət sahəsində içməli sudan təyinatına uyğun olmayaraq səmərəsiz istifadə və israfçılıq hallarına yol verilir. İçməli su təchizatı sisteminin təkmilləşdirilməsi və suvarma kanallarının rekonstruksiyası istiqamətində aparılan genişmiqyaslı işlərə baxmayaraq hələ də bu sahədə çox böyük miqdarda su itkisi mövcuddur. Belə ki, təbii mənbələrdən götürülən suyun istehlakçıya çatdırılması prosesində böyük itkiyə yol verilir ki, bu da az su ehtiyatlarına malik olan ölkəmiz üçün böyük rəqəm hesab olunur.

Hazırda ölkəmizdə su qıtlığının qarşısının alınması məqsədi ilə yeni alternativ su mənbələrinin yaradılması istiqamətində müvafiq işlər həyata keçirilir. Su istehlakçılarının tələbatının tam ödənilməsi məqsədilə əlavə müxtəlif tutumlu yeni su anbarlarının yaradılması ölkənin su təhlükəsizliyində mühüm rol oynaya bilər. Yaxın gələcəkdə alternativ su mənbələrinin axtarışı, yağış sularından istifadə olunması, dəniz suyunun duzsuzlaşdırılması, sudan təkrar istifadə kimi amillər də nəzərə alınmalıdır.

*-Muxtar müəllim, hazırda Xəzər dənizinin ekoloji vəziyyəti də aktual məsələlərdən biridir. Xəzərin ekoloji vəziyyətinin çirklənməsinin qarşısının alınması üçün hansı tədbirlər həyata keçirilir?*

-Bu gün Nazirliyin fəaliyyət hədəflərindən biri Xəzər dənizinin çirklənməsinin qarşısını almağa yönəlib. Mümkün olan bütün vasitələrdən istifadə olunur ki, Xəzər ekoloji inkişaf və ekoloji sabitlik zonasına çevrilsin.

Lakin əfsuslar olsun ki, antropogen və təbii amillərin təsiri (qlobal iqlim dəyişiklikləri, dəniz səviyyəsinin tərəddüdü, çay axınının həddən artıq tənzimlənməsi, çirklənmə, qanunsuz balıq ovu və s.) Xəzər dənizi ekosisteminin deqradasiyasına gətirib çıxarmışdır. Bu gün Xəzər dənizinin ekosisteminə mənfi təsir aradan qaldırılmasa, gələcəkdə ağır nəticələrə gətirib çıxarar.

Xəzər dənizinin əsas çirklənmə mənbələri onun hövzəsində, sahillərində və akvatoriyasında yerləşən şəhərlərin və sənaye obyektlərinin çirkab suları, dəniz nəqliyyatından və neft mədənlərindən daxil olan müxtəlif çirkləndiricilərdir.

Dənizi Azərbaycan sektorunda və onun şimaldan-cənubadək sahil zolağında, o cümlədən çimərlik ərazilərində, eləcə də dənizdə fəaliyyət göstərən müəssisə və obyektlərdə, üzən vasitələrdə və s. monitorinqlər keçirilmiş və dənizə olan axarlar müəyyən edilərək xəritələşdirilmişdir. Etiraf etmək lazımdır ki, sahil zolağında yerləşən rayonların əksəriyyətində təmizləyici qurğular olmadığından müxtəlif tərkibli tullantı suları təmizlənmədən Xəzərə axıdılır.

Xəzər dənizinin su balansında əsas rolu dənizə tökülən 130-a qədər çay təşkil edir. Dənizin qidalanmasında Volqa çayının xüsusi əhəmiyyəti olsa da, bu gün Xəzər akvatoriyasını ən çox Volqa çirkləndirir.

Bu su hövzəsinin qorunması ilə bağlı regional və beynəlxalq səviyyədə üzərimizə götürdüyümüz öhdəliklər, tərəfdaş olduğumuz konvensiyaların müddəaları da bu sahəni daim diqqət mərkəzində saxlamağı bizdən tələb edir. Ötən ilin avqust ayında Qazaxıstanın Aktau şəhərində keçirilmiş Xəzəryanı ölkələrin dövlət başçılarının Beşinci Zirvə toplantısında "Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya"nın imzalanması ilə regionda əməkdaşlığa yeni zəmin yaranmışdır.

*-Bu gün respublikamızın ərazisində yaşıllaşdırma işləri də böyük vüsət alıb. Bu barədə nə deyə bilərsiniz?*

-Bildiyiniz kimi, Abşeron yarımadasının iqlimini nəzərə alaraq, onun arid sahələr və aşağı keyfiyyətli torpaqlarla səciyyələnən ərazilərində yaşıllaşdırma işlərinin aparılması ümumi ekoloji vəziyyətin yaxşılaşdırılmasında, eyni zamanda iqlim dəyişmələri ilə bağlı təsirlərin minimuma endirilməsində effektiv bir vasitədir.

Əsas prioritet istiqamətlərimizdən biri də meşələrin artırılması və bərpası, o cümlədən meşələrdən davamlı istifadə edilməsidir. Azərbaycan az meşəli ölkədir. Meşələrin qanunsuz qırılması və digər dağıdıcı müdaxilələrin qarşısının alınması, meşələrin qorunması və mühafizəsinin gücləndirilməsi istiqamətində işlər davam etdirilir.

Hazırda "Azərkosmos" ASC və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə birgə meşə ilə örtülü ərazilərindəqiqləşdirilməsi məqsədilə inventarlaşma işləri aparılır. Bu işlərdə Nazirliyin nəzdində fəaliyyət göstərən geodeziya və kartoqrafiya xidmətinin imkanlarından da geniş istifadə edilir.

Bundan əlavə meşə idarəetmə sisteminin müasirləşdirilməsi, meşə ekosisteminin qorunub saxlanılması, yeni meşə sahələrinin salınması və meşə təsərrüfatından beynəlxalq təcrübələr əsasında davamlı istifadə edilməsi məqsədilə BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) texniki dəstəyi ilə Yeni Milli Meşə Proqramının hazırlıq işlərinə başlanılıb və Proqramın ilkin layihəsi tamamlanıb. Azərbaycan Respublikasının Milli Meşə Proqramı 2020-2030-cu illəri əhatə edən 10 illik müddət üçün nəzərdə tutulub.

⇨ Davamı 10-cu səhifədə

# “Azərbaycan canımızın parçasıdır...”

## BAKIDA “TÜRKİYƏDƏN ƏSƏN MEH” RƏNGİNDƏ NÖVBƏTİ SƏNƏT ZİYAFƏTİ...



Bu günlərdə Azərbaycan Milli İncəsənət Muzeyi (AMİM) azərbaycanlı sənətsevərləri bir araya toplayan əlamətdar bir sərgiyə ev sahibliyi etdi.

Azərbaycanın Mədəniyyət Nazirliyi, Bakı Yunus Əmrə İnstitutu və AMİM-in birgə təşəbbüsü, eləcə də “Türk Hava Yolları”nın dəstəyi ilə ərsəyə gələn “Türkiyədən əsən meh” sərgisi qardaş ölkənin Rauf Tuncer, Hüseyin Elmas və Erkin Keskin kimi məşhur rəssamlarının kətan üzərindəki bənzərsiz yaradıcılığını təqdim etməklə şəhərimizin mədəni gündəminə canlılıq gətirdi.

Xatırladaq ki, sərginin açılış mərasimində mədəniyyət naziri Əbülfəs Qarayev, Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak edərək iki qardaş ölkə arasında bütün sahələrdə olduğu kimi, mədəni əlaqələrin də gündən-günə inkişaf etdiyini deyərək sözügedən sərginin bu baxımdan böyük önəmini vurğulamışlar.

Adıçəkilən muzeydəki rənglər ziyafətinin tam içərisində qardaş ölkənin sənət cameəsinin önəmli isimlərindən sayılan rəssamlarla görüşümüzün məqsədi sənətkarların Azərbaycanla bağlı təəssüratlarını öyrənmək, eyni zamanda, onların yaradıcılıq dünyalarına nüfuz etmək və sənətlə maraqlanan oxucularımızı bu rəngarəng aləmin canlı boyaları ilə yaxından tanış etmək idi.



**Rəssam Rauf Tuncer 1955-ci ildə Türkiyənin Rizə bölgəsində dünyaya gəlib.** Mərmərə Universitetinin Gözəl sənətlər fakültəsini bitirən rəssam 1974-1986-cı illərdə orta məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olub. Daha sonra İstanbulda şəxsi rəsm atelyesini yaradaraq sənət fəaliyyətini orada davam etdirib. Bir müddət xaricdə yaşayıb- yaradan rəssam bir çox özəl ali təhsil müəssisələrində də çalışıb. Sənətkarın müxtəlif illərdə Türkiyə ilə yanaşı, Hollandiya, Yunanıstan, İran, Almaniya, ABŞ kimi ölkələrdə çoxsaylı sərgiləri açılıb.

Rauf Tuncerin yaradıcılığı üçün xəttatlıq sənətinin rəngli təsviri, folklor fiqurları və islamiyyətdən əvvələ aid kitabələrin boyaların dili ilə canlandırılması xarakterikdir. Rəssam kətan üzərindəki çalışmalarında xüsusilə də xəttatlıq sənətinin incəliklərini rənglərin vasitəsi ilə tamaşaçısına çatdırır. Onun haqqında “Türkiyənin sənət dünyasını zənginləşdirənlər karvanında öncül mədəniyyətin rəssamlıq rəhbəri” kimi söhbət açılır.

Rauf Tuncer Bakının İzmirə bənzədiyini deyir. O, həm də Qobustanı görmədən, amma bu mövzuda gözəl silsilə rəsmlər yaradan nadir rəssamlardandır: “Anadoludan Orta Asiyaya qədər mədəniyyət nümunələri maraq dairəmdədir. Qobustan mədəniyyəti ilə xaricdən gətirtdiyim kitablar vasitəsilə yaxından tanış olmuşdum. Qobustana getməsəm də, haqqında çox oxuyub öyrənmişəm, oranın ruhunu uzaqdan da hiss edə bilirəm. Orxon- Yenisey abidələri də həmçinin. Biz eyni mədəniyyətin daşıyıcılarıyıq. İki dövlət olsaq da, eyni millət olaraq coğrafiyamız, düşüncə tərzimiz, həyata baxışımız eynidir, tariximiz ortaqdır. Bakıda da eynən İstanbulda olduğu kimi qədim tikililər ruhumuza daha doğma gəlir. Azərbaycanda sözə, ədəbiyyata böyük önəm verilir, buranın insanları şeirə, poeziyaya çox bağlıdırlar. Xalqın incə ruhu ədəbiyyatında daha çox öz əksini tapıb. Bakıya ilk dəfə gəldiyimə baxmayaraq burada özümü həqiqətən evimdəki kimi hiss etdim.

Azərbaycanın dərdi həmişə bizim də dərdimiz olub. Cismən burda ola bilməsək də, Azərbaycanla bağlı o qədər çox oxuyub öyrənmişik ki... Məsələn, Məhəmməd Əmin Rəsulzadənin, yaxud da Nəriman Nərimanovun nələr çəkdiyini bilirəm... Biz Qarabağ problemini də, Xocalı faciəsini də həmişə öz kədərimiz bilirik, bununla bağlı duyğularımız çox həssasdır. Xocalı bizim də qanayan yaramızdır. Azərbaycan canımızın parçasıdır...”



**Rəssam Erkin Keskin 1969-cu ildə Türkiyənin Artvin bölgəsində anadan olub.** Uludağ Universitetində rəssamlıq və qrafika üzrə ali təhsilini tamamlayıb. 1996-cı ildən etibarən həmin universitetdə fəaliyyət göstərir. Rəssamın müxtəlif illərdə öz ölkəsi ilə yanaşı, Rumıniya, Bolqarıstan, İsveçrə, Çin, Belarus, Makedoniya, Yaponiya, Rusiya, Fransa, İtaliya, Belçika, İspaniya, Kanada, Finlandiya, Polşa, Misir kimi ölkələrdə sərgiləri açılıb. Erkin Keskin haqqında Türkiyə sənət cameəsində “əsərləri ilə asılılıq yaradan sənətkar” olaraq bəhs edilir. Rəssamın tablolarında səslərdən rəsm cizgilərinə keçid çox maraqlı bir tərzdə çulğaşır.

Erkin Keskin “Türkiyədən əsən meh” sərgisində daha çox qadın, skripka və durna motivlərinin üstünlük təşkil etdiyi əsərlərinin sərgiləndiyini, amma bütövlükdə bu tərzin onun yaradıcılığının sadəcə bir qolu olduğunu vurğuladı: “Mən eyni zamanda həvəskar musiqiçiyəm. Rəsmdən başqa digər bir həqiqətim də musiqidir. Yəni ürəyimin yarısını musiqiyə vermişəm. Müəyyən bir zamandan sonra yaradıcılığımda rəsm və musiqi vahid bir ritualda birləşdi. Hər bir rəsmimi kətan üzərində çalışarkən səslərlə də çox maraqlanıram. Hər bir rəsmimi fərqli səs topluluğunun, ya da melodiyanın vizual ifadəsi kimi görürəm. Hər bir rəsmimin “səsini” eşidə bilirəm və bunu digərlərinə də eşitdirməyə çalışıram. Görmə qüsuru olanlar üçün qabartmalı rəsmlər çəkirəm, onların toxunuş vasitəsilə rəsmi “görməsini” istəyirəm. Dəyişik eksperimentlərim də var- daş və seramika üzərində qabartma elementləri ilə də çalışıram”.

Rəssam Azərbaycana ilk gəlişi olduğunu qeyd edərək Bakının gözəlliyindən, şəhərin modernləşdirilməsindən söz açdı: “Bakıda binaların üzərinə çəkilən daş örtüklər şəhərə bir bütünlük mənzərəsi verir. Amma bununla belə, fikrimcə, yeni tikilən göydələnlərlə qədim şəhərin görüntüsü arasında mülayim bir bağ qurulmasının lazım olduğunu düşünürəm. Yəni müasirliklə qədimliyin uzlaşdırılması şəhərə daha çox gözəllik qata bilər, uyumlu görünər”.

Erkin Keskin indiyə qədər Türkiyədə sərgiləri düzənlənən azərbaycanlı rəssamlarla tanış olduğunu, Azərbaycan rəssamlığı haqqında onların vasitəsilə məlumat aldığını bildirdi. Rəssam “Türkiyədən əsən meh” sərgisinin açılışında mədəniyyət nazirinin və bir çox tanınmış ziyalıların iştirakını, xeyli sayda sənətsevərin sərgini ziyarət etməsini təqdir edərək bunu Azərbaycanda sənətə və sənətkara böyük dəyər göstəricisi kimi qiymətləndirdi.



**Rəssam, professor Hüseyin Elmas 1967-ci ildə Türkiyənin Mərsin bölgəsində dünyaya göz açıb.** 1990-cı ildə Qazi Universitetinin rəsm təhsili fakültəsindən məzun olub.

Konya şəhərindəki Səlcuq Universitetində çalışan rəssamın indiyədək 14-dən artıq fərdi sərgisi açılıb, müxtəlif xarici ölkələrdə 150-yə qədər sərgilərdə əsərləri nümayiş etdirilib. Rəsmləri şəxsi kolleksiyalarda və muzeylərdə saxlanılan rəssam hazırda sənət fəaliyyətini Konyada davam etdirir. Rəssamın yaradıcılığında sufilik fəlsəfəsinin boyalarla ifadəsi aydın nəzərə çarpır. Özü bu tendensiyanı Mövlana Cəlaləddin Ruminin vətənində yaşamağın avantajı kimi dəyərləndirdi: “Rəsmlərimdə Anadoluda mövcud olan mədəniyyətin izlərini təsvir etməyə çalışıram. Konyada yaşadığım üçün yaradıcılığımda mövləviliklə bağlı, eyni zamanda, Səlcuqlar və Osmanlı dövrünün mədəniyyətlərindən izlər var, rəsmlərimdə müxtəlifliklərin kompozisiyası sintezləşdirilib. Hazırda yazmasam da, bir müddət dövri mətbuatda sənətlə və müxtəlif rəssamların yaradıcılığı ilə bağlı yazılar yazmışam. Məncə, yazı ilə müqayisədə rəsmin azadlıq meydanı daha genişdir, rəsmdə rənglərlə daha çox “oynamaq”, istiqamətləndirmək mümkündür. Amma yazıda gördüklərini yazmalısan. Kətan üzərində rənglərlə özümü istədiyim kimi ifadə etmək imkanımın daha geniş olduğunu düşünürəm”.

Azərbaycana üçüncü gəlişinin olduğunu deyən rəssam bu illər ərzində Bakıda müsbətə doğru xeyli dəyişikliklərin baş verdiyini və ölkənin gözgörəsi inkişaf etdiyini bildirdi: “Estetik olaraq Bakı getdikcə gözəlləşdirilir. Bununla yanaşı Bakıda qədimliyin xüsusi həssaslıqla qorunub saxlanılmasını arzulayardım. Bundan sonra da əməkdaşlığı davam etdirməyi düşünürük. Ehtimal ki, oktyabr ayında daha bir layihə çərçivəsində Bakıya səfərim olacaq. Bundan sonra nə qədər ömrüm varsa, Bakıdan qopmağı düşünmürəm, yəqin ki, həmişə gəlib-gedəcəyəm. Dünyanın bir çox ölkələrində olmuşam. Məsələn, Sankt-Peterburqda olarkən bir narahatlıq duyğusu adamın yaxasını buraxmır, amma Bakıda məni həmişə qəribə bir rahatlıq və doğmalıq hissi bürüyür. Bakıda qətiyyən narahatlıq hiss etmirsən. Yaxın bölgənin eyni düşüncəli insanlarıyıq. Azərbaycanda özümüzü həm ruhən, həm cismən tam təhlükəsizlikdə hiss edirik, bu, çox əhəmiyyətli duyğudur. Bu, yəqin ki, ata-babalarımızın “qan çəkir” kəlamı ilə bağlı məsələdir...”

Rəssam vətənində Xocalı ilə bağlı təşkil olunan tədbirlərdə çox yaxından iştirak etdiyini vurğulayaraq Türkiyədə və dünyada Azərbaycan həqiqətlərini əks etdirən, eləcə də Dağlıq Qarabağla bağlı gerçəkləşdirilən layihələrdə bundan sonra da yorulmadan, həvəslə iştirak edəcəyini bildirdi.

Sonda isə rəsm həvəskarlarına kiçik xatırlatma: Müxtəlif texnika və janrlarda işlənmiş 51 əsərin nümayiş olunduğu “Türkiyədən əsən meh” rəngində növbəti sənət ziyafətinə hansısa səbəbdən qatıla bilməmisinizsə, hələ iştirak etmək imkanınız var- sərgi mayın 24-dək davam edəcək.

**Sevinc Mürvətqızı,**
***“İki sahil”***

## Misirin enerji sektoru inkişaf edir



Misir hökuməti neft sektoruna növbəti maliyyə ilində 10 milyard dollar sərmayə cəlb etməyi planlaşdırır. Ötən üç il ərzində bu sahəyə 30 milyard dollar sərmayə cəlb olunduğu bildirilir.

Ölkənin Sənaye Federasiyasında neft sahəsinin sədri Mohamed Saad qeyd edib ki, son illər neft sektoruna yatırılan investisiyalar hesabına Misir hazırda özözünü təbii qazla təmin edir və tezliklə qaz ixrac edən ölkəyə çevrilməyə hazırlaşır. “2018-ci il ərzində Misirdə gündəlik qaz hasilatı 6,6 milyard kubfut təşkil edib, neft və qaz kəşfiyyatına ayrılan investisiyanın ümumi həcmi isə 10 milyard dollar civarında olub”,- deyə o bildirib.

Mohamed Saad qeyd edib ki, “Shell”, “Eni” və “ExxonMobil” Misirin enerji sektoruna böyük sərmayələr ayıran şirkətlərdir. O, Şimal deltası, Qərbi Səhra və Qırmızı dəniz ərazisinin neft kəşfiyyatı, Aralıq dənizinin isə təbii qaz kəşfiyyatı üçün mühüm sahələr olduğunu vurğulayıb.

Mohamad Saad qeyd edib ki, Misirdə hərəsi günə 2 milyard kubfut emal gücünə malik iki təbii qaz mayeləşdirmə zavodu var və tezliklə Misir regionun güc mərkəzinə çevrilə bilər.

Bu yaxınlarda Misirin neft naziri Tarek Molla 2014-2018-ci illər ərzində Misirdə 63 neft müqaviləsinin imzalandığını açıqlamışdı. 12 yeni kəşfiyyat müqaviləsi ilə müxtəlif şirkətlərə lisenziyalar verilmişdi və ölkənin enerji sektoruna 750-800 milyon dollar investisiya cəlb edilmişdi.

# Ekoloji problemin həlli və ətraf mühitin qorunması hər bir insanın mənəvi borcudur

**Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin www.yap.org.az saytına müsahibəsi**

⇨ Əvvəli 8-ci səhifədə

*-Mayın 10-da ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında Prezident İlham Əliyev və ailə üzvləri də iştirak etdilər...*

-Bəli, mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Zığ dairəsi-Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunun 28-ci kilometrliyində salınan yaşıllıq sahəsində ulu öndər Heydər Əliyevin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında iştirak ediblər.

Ağacəkmə kampaniyası zamanı "Keçmiş yod-brom zavodunun çirklənmiş ərazilərinin təmizlənməsi" və "Heydər Əliyev Beynəlxalq Aeroportunun yaxınlığındakı çirklənmiş ərazilərin təmizlənməsi" layihələri barədə Prezident İlham Əliyevə məlumat verilib. Suraxanı rayonunda keçmiş yod-brom zavodunun ərazisində lay suları, duz, yod və digər tullantılarla çirklənmiş 67 hektar sahənin təmizlənərək bərpa edilməsi, kollektor-drenaj sisteminin qurulması işləri uğurla icra olunub. Ümumilikdə, indiyədək bu ərazidə yerli iqlim şəraitinə uyğun 50 mindən çox müxtəlif növ ağac əkilərək böyük yaşıllıq zolağı salınıb.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən ağacəkmə aksiyasında 4 hektar ərazidə, ümumilikdə, 3250 ağac əkildi. Ağaclar əraziyə çəkilmiş müasir, avtomatlaşdırılmış damcılı suvarma sistemi vasitəsilə suvarılır. Suvarma üçün su isə Hövsan Aerasiya Stansiyasından götürülür və təmizləyici qurğularda təmizləndikdən sonra suvarmaya ötürülür. Damcılı suvarma sisteminin elektrik enerjisi ilə təchizatı Suraxanı Günəş Elektrik Stansiyası hesabına təmin ediləcək.

Azərbaycan dövləti ekologiyanın və ətraf mühitin mühafizəsi məsələsinə həmişə xüsusi diqqətlə yanaşır. Ölkəmizin zəngin flora və faunasının qorunması, ekoloji durumun daha da yaxşılaşdırılması, Bakının yaşıllıqlar şəhərinə çevrilməsi istiqamətində ulu öndər Heydər Əliyev bütün dövrlərdə çox böyük işlər görüb. Ümummilli Liderin əsasını qoyduğu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir.

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da ölkəmizdə yeni yaşıllıqların salınmasına və mövcud yaşıllıq sahələrinin qorunmasına xüsusi diqqət yetirir. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə həyata keçirilən layihələrin də mühüm rolu var.

Müxtəlif vaxtlarda icra olunan ekoloji layihələr Azərbaycanın bütün regionlarını əhatə etməklə, ümumilikdə ölkəmizin ekoloji vəziyyətinin sağlamlaşdırılmasına böyük töhfələr verir.

Bu gün Azərbaycanın hər yerində vətəndaşların iştirakı ilə ağacəkmə aksiyaları keçirilir. Bu işlərin görülməsində, yaşıllıqların salınmasında, şəhərlərimizdə və rayonlarımızda təmizlik işlərində hər bir sakin fəal iştirakı ilə seçilir. Təsadüfi deyil ki, hazırda Azərbaycanda ekologiyanın qorunması, əhalinin sağlamlığının təmin edilməsi istiqamətində görülən işlər bir çox ölkələrə nümunədir.

*-Respublika ərazisindəki mövcud mineral xammal bazası və ondan səmərəli istifadə ilə bağlı hazırda hansı işlər aparılır?*

-Azərbaycan Respublikası çox əlverişli təbii şəraitə və zəngin təbii ehtiyatlara malik ölkədir. Aparılmış geoloji-kəşfiyyat işləri nəticəsində ölkənin bir sıra bölgələrində müxtəlif növ qeyri-filiz faydalı-qazıntı və tikinti-inşaat materialları yataqları aşkar edilmişdir. Onlardan səmərəli şəkildə istifadə olunması iqtisadiyyatın, o cümlədən sənayenin inkişafında mühüm rol oynayacaqdır.

Dövlət Balansında qeydiyyata alınmış, sənayenin müxtəlif sahələrində istifadə oluna bilən faydalı qazıntı ehtiyatları istismara cəlb edilməmişdir. Bu yataqlara misal olaraq seolit, kükürd, barit, gips, anhidrid, gəc, keramika xammalı, dolomit, bentonit gilləri, kvarsit, mineral boyalar, flyus və soda üçün əhəngdaşı xammalı, şüşə xammalı, selitra, karbonat xammalı, əlvan daşlar, kaolin gilləri və s. göstərmək olar.

Sadalanan mineral xammal ehtiyatları qeyri-neft sektorunun inkişafında sənayenin müxtəlif sahələrində - metallurgiya, kimya, neft, neft-kimya, sement istehsalı, tibb, zərgərlik, tikinti, şüşə istehsalı, yol və inşaat işlərində geniş tətbiq oluna bilər.

Filiz yataqlarının öyrənilməsi istiqamətində "AzerGold" QSC ilə birgə ölkənin ən böyük qızıl yatağı kimi proqnozlaşdırılan Tülallar sahəsində tədqiqat işləri davam etdirilir və bütün filiz yataqları haqqında məlumatlar rəqəmsallaşdırılır.

Əsas prioritet məsələlərdən başlıcası ehtiyatlar balansında qeydiyyata alınmış mineral xammal yataqlarının istismara cəlb olunması və qeyri-neft sektorunun inkişafının sürətləndirilməsindən ibarətdir.

*-Ekologiya və Təbii Sərvətlər Nazirliyinin beynəlxalq əlaqələri haqqında da məlumat verməyinizi xahiş edirik...*

-Azərbaycan Cənubi Qafqazda, Mərkəzi Asiya və Qərbi Asiya ölkələrini birləşdirən əhəmiyyətli yolayrıcında yerləşir. Bu baxımdan ölkəmizdə ətraf mühitin qorunması sahəsində beynəlxalq əməkdaşlığına onun mürəkkəb geosiyasi vəziyyəti təsir edir.

Ətraf mühit problemlərinin ümumbəşəri bir problem olduğunu nəzərə alaraq, dünyanın heç bir ölkəsi ətraf mühitin mühafizəsi problemlərini təklikdə həll etmək iqtidarında deyil. Bu məqsədlə ölkəmiz üçün ətraf mühitin mühafizəsi sahəsində digər ölkələr və təşkilatlarla razılaşma və sazişlərin imzalanması, beynəlxalq konvensiyalara qoşulma vacib məsələlərdəndir. Azərbaycan 20-dən çox beynəlxalq konvensiya və protokollara qoşulub. Bu istiqamətdə fəaliyyət bu gün də davam etdirilir və qlobal məqsədlərə xidmət edən digər beynəlxalq çoxtərəfli müqavilələrə qoşulma istiqamətində müvafiq işlər aparılır. 40-a yaxın ölkə ilə ikitərəfli müqavilələr imzalanıb.

Xarici siyasətimizin prioritet istiqamətlərindən olan Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistanın işğalçı siyasətinin ifşası, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması xarici dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən əməkdaşlıq zamanı gündəlikdə duran əsas məsələdir.

*-Bildiyimiz kimi ölkəmizdə bir sıra qoruq və milli parklar fəaliyyət göstərir. Burada ekoturizmin inkişafı ilə əlaqədar hansı perspektivlər mövcuddur?*

-Azərbaycan Respublikası Qafqaz ölkələri və bütövlükdə Avropa üzrə zəngin biomüxtəlifliyə malik olan ölkələrdəndir. Bu baxımdan ölkəmizdə biomüxtəlifliyin qorunması həm milli və regional, həm də qlobal əhəmiyyətə malikdir. Hazırda xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi ölkə ərazisinin 10,3 %-nə çatdırılıb. Ölkədə 10 milli park, 11 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı fəaliyyət göstərir. "Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair 2017-2020-ci illər üzrə Milli Strategiya" çərçivəsində Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2018-ci ildə Qızılağac Dövlət Təbiət Qoruğunun bazasında Qızılağac Milli Parkı yaradılıb. Bu ildən etibarən Almaniya İnkişaf Bankının maliyyə dəstəyi ilə Zaqatala-Balakən regionunda ölkə tarixində ilk biosfer qoruğunun yaradılması işlərinə başlanılacaqdır.

Ölkəmizdə hazırkı və növbəti illər üçün prioritetlərdən biri ətraf mühitin mühafizəsi və yerli əhalinin rifah halını yaxşılaşdırmaq, onun tələblərini qarşılamaq üçün potensiala malik olan davamlı ekoturizmin inkişaf etdirilməsidir.

Ekoloji turizm - dünya turizm sənayesinin ən sürətli inkişaf edən sahələrindən biridir. Ekoloji turizm istirahət məqsədi ilə istifadənin yeni forması olmaqla yanaşı, təbiətdən zövq almaq, rekreasiya ehtiyatlarından düşünülmüş şəkildə istifadə etməyi, bioloji müxtəlifliyin qorunmasını təbliğ etməklə, həm də turizm fəaliyyətinin dayanıqlılığını tələb edir. Ekoturizmin inkişaf etdirilməsi üçün Dövlət Turizm Agentliyi ilə birlikdə beynəlxalq ekspertlərin dəstəyi ilə yeni ekoturizm konsepsiyası hazırlanır.

Bu istiqamətdə xanım Leyla Əliyevanın təsisçisi olduğu IDEA İctimai Birliyinin fəaliyyətini xüsusi vurğulamaq istərdim. IDEA İctimai Birliyinin bu istiqamətdə gördüyü işləri, xüsusilə də ətraf mühitin mühafizəsi işinə gənclərin cəlb olunmaları yüksək qiymətləndiririk.

İDEA İctimai Birliyi ilə birgə nadir və nəsli kəsilmək təhlükəsində olan bioloji növlərin artırılması, onların tarixən məskunlaşdıqları ərazilərə reintroduksiya olunması sahəsində aparılan işlər bu gün də davam edir. Belə ki, nəsli kəsilmiş zubrların (avropa bizonu) bərpası və onların ölkə təbiətinə reintroduksiya olunması, digər növ vəhşi heyvanların elmi məqsədlərlə artırılması və çoxaldılıb təbiətə buraxılması üçün Şahdağ Milli Parkının ərazisində volyer kompleksi inşa edilib. 2019-cu ilin may ayında ölkəyə bizonların introduksiya olunması və bir ay müddətində qapalı volyer şəraitində saxlanıldıqdan sonra Ekologiya və Təbii Sərvətlər Nazirliyi və İDEA İctimai Birliyinin birgə təşəbbüsü ilə təbiətə buraxılması planlaşdırılır.

Bildiyiniz kimi, IDEA-nın təşəbbüsü ilə Azərbaycanın təbiət gözəlliklərini ölkə daxilində və xaricdə təbliğ etmək, eləcə də ətraf mühitin mühafizəsinin vacibliyini diqqətə çatdırmaq məqsədilə milli parklarla bağlı sənədli filmlər silsiləsi də yaradılır. Sözügedən layihə çərçivəsində 2014-cü ildə "Şirvan Milli Parkı", 2015-ci ildə "Quşlar cənnəti - Ağgöl Milli Parkı" və "Göygöl Milli Parkı", 2017-ci ildə "Azərbaycan. Ceyranların xilası", ötən il isə "Abşeron Milli Parkı" sənədli filmləri geniş ictimaiyyətə təqdim olunub. Layihə çərçivəsində ölkəmizin bütün milli parkları haqqında sənədli filmin hazırlanması nəzərdə tutulub. Bu yaxınlarda "Şahdağ. Dağların şahı" sənədli filminin təqdimat mərasimi keçirildi və Qızılağac Milli Parkından bəhs edən yeni filmdən kadrlar göstərildi və geniş auditoriya tərəfindən böyük maraqla qarşılandı.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapşırıqları və dəstəyi ilə reallaşdırılan layihələr də ölkəmizdə ətraf mühitin mühafizəsinə mühüm töhfələr verməkdədir.

Azərbaycan Respublikasının geoloji, coğrafi, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət obyektlərinin qorunması istiqamətində UNESCO ilə əməkdaşlıq genişləndirilir. Hirkan meşələrinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə bağlı işlər aparılır.

UNESCO-nun Qlobal Geoparklar təşəbbüsü çərçivəsində Bakı və Abşeron yarımadasının Palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğu ərazisinin beynəlxalq geoloji əhəmiyyətə malik ərazi kimi müəyyən edilməsi ilə bağlı tədbirlər həyata keçirilir. Bu günlərdə "geoparkların yaradılmasına dair" qanunvericiliyə edilmiş dəyişikliklər bu işlərin reallaşdırılması üçün imkanlar yaradır.

*- Sizcə, ətraf mühitin qorunmasını təmin etmək üçün ictimai nəzarət hansı səviyyədədir?*

-Əlbəttə, dövlət qurumları ilə yanaşı, ətraf mühitin qorunmasını təmin etmək üçün ictimai nəzarət daha da artırılmalıdır. Ekoloji problemin həlli və ətraf mühitin qorunması hər bir insanın mənəvi borcudur. Bu gün ekoloji problemlərin həlli bəşəriyyətin, böyükdən kiçiyə qədər hər kəsin bu işə cəlb olunmasını tələb edir. Heç kimin bu problemdən kənarda qalmağa mənəvi haqqı yoxdur.Nazirliyin ətraf mühitin mühafizəsi sahəsindəki çoxsahəli fəaliyyətində ictimaiyyətin məlumatlandırılması və maarifləndirilməsi işi prioritet istiqamətlərdən biridir.

Belə ki, ətraf mühitin vəziyyəti və bu sahədə olan problemlərin aradan qaldırılmasında ictimaiyyətin iştirakının təmin edilməsi məqsədilə müxtəlif mövzularda ekoloji təbliğat xarakterli görüşlər keçirilir, kütləvi informasiya vasitələrində çıxışlar təşkil edilir. Beynəlxalq ekoloji təqvim günlərində də ekoloji təbliğat xarakterli tədbirlər həyata keçirilir.

Hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini, ilk növbədə, gənc nəslə bağlayır. Bu baxımdan gənclərin nazirliyin fəaliyyətində fəal iştiraka cəlb olunmasına, onların istək, rəy və təkliflərinə böyük önəm verilir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə "Dövlət Proqramı"na və dövlət başçısının 2019-cu il fevralın 1-də Azərbaycan Gəncləri Gününə həsr olunmuş respublika toplantısındakı çıxışına əsaslanaraq gənclərdən ibarət "Təbiəti könüllü qoruyaq" adlı könüllülər qrupu yaradılmışdır. Bu günə kimi, artıq 500-ə yaxın könüllü gənc müraciət etmişdir. Könüllülük fəaliyyətinə qoşulan gənclər ətraf mühit və təbii sərvətlərin qorunması istiqamətində təbliğat və maarifləndirmə işləri və əmək vərdişləri aşılayan təlimlərdə iştirak edəcək və seçilənlərə xüsusi sertifikatlar veriləcək. Seçilmiş namizədlərdən gələcəkdə Nazirliyin ehtiyat kadr heyətinin formalaşdırılması nəzərdə tutulur ki, bu da gənclərin iş həyatına uğurlu bir keçid fürsəti yaradacaqdır. Biz hər bir kəsi laqeyd olmamağa, təbiəti sevməyə və qorumağa çağırırıq.

# Hakimlər üçün təlim

**Azərbaycanda sahibkarlığın inkişafı, əlverişli biznes mühitinin yaradılması çərçivəsində orta və kiçik sahibkarların maliyyə çıxışının asanlaşdırılması, daşınar və daşınmaz əmlakın gəlir gətirməsi və girov kimi istifadə edilməsi imkanlarının təhlili, bankların gəlir gətirmə prosesində iştirak edən daşınar əmlaka girov kimi etibarın yüksəldilməsi istiqamətində konkret tədbirlər görülür, qanunvericilik təkmilləşdirilir. Bu məqsədlə "Daşınar əmlakın yüklülüyü haqqında" 2017-ci il mayın 2-də Qanun qəbul edilib. Ötən ilin martından isə daşınar əmlakın yüklülüyü haqqında dövlət reyestri fəaliyyətə başlayıb.**

Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və hüquqi maarifləndirmə məqsədilə Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası tərəfindən Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycandakı Nümayəndəliyi (IFC) və İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) ilə birgə "Daşınar əmlakın yüklülüyü" mövzusunda silsilə təlimlər təşkil olunur.



Ədliyyə Akademiyasından AZƏRTAC-a bildiriblər ki, bu günlərdə keçirilmiş növbəti təlimin açılışında Akademiyanın rektor vəzifəsini icra edən Elçin Xəlefov, IFC-nin layihə təmsilçisi Teymur Heybətov və Maliyyə Bazarlarına Nəzarət Palatası idarə heyətinin üzvü vəzifəsini icra edən Əfqan Baxışov çıxış edərək bildiriblər ki, təlimlərin keçirilməsində məqsəd daşınar əmlakın yüklülüyü sahəsində mübahisələrə baxacaq hakimlər tərəfindən yeni qanunvericilikdən və beynəlxalq təcrübədən irəli gələn məsələlərin öyrənilməsi, milli təlimçilərin hazırlanmasıdır.

Birinci instansiya məhkəmələri hakimlərinin cəlb olunduqları təlimdə IFC-nin və Palatanın nümayəndələri tərəfindən "Azərbaycanda maliyyə infrastrukturu sahəsində qanunvericilik və institusional islahatların qısa xülasəsi", "Daşınar əmlakın yüklülüyü ilə tanışlıq", "Daşınar əmlakın yüklülüyündə üstünlük qaydaları", "Məhkəmə baxışı", "Daşınar əmlakın yüklülüyünün yaranması (əqdlərin rəsmiləşdirilməsi)", "Daşınar əmlakın yüklülüyündə yüklülük predmetinə tutma yönəldilməsi" mövzularında mühazirələr tədris olunub, dinləyiciləri maraqlandıran suallar ətrafında faydalı fikir mübadiləsi aparılıb.

# Əli Kərimli artıq özünü manyak kimi aparır



Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub. Ölkə demək olar ki, yeni transformasiya zolağına daxil olub. Dövlət başçısı keçən il prezident seçkilərindən sonra islahatların yeni mərhələsinin başladığını və onun icrası üçün məqsədyönlü addımlar atıldığını bildirib.

Cəmiyyətin bütün sahələrində olduğu kimi, uğurla reallaşdırılan iqtisadi islahatlar büdcə gəlirlərinin artmasına, əhalinin rifah halının yaxşılaşdırılmasına böyük töhfələr verir.

Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bildirib ki, bu ilin yanvar-fevral aylarında büdcə daxilolmaları 150 milyon manat səviyyəsində artıb:

"Bu bizə imkan verir ki, həmin vəsaiti sosial layihələrə yönəldək. Qeyd etdiyim kimi, ciddi islahatlar üzərində işlər keçən il prezident seçkilərindən sonra başlayıb. Bu gün isə çox ciddi sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər nəticəsində 3 milyondan çox insan öz maddi vəziyyətini, maliyyə vəziyyətini yaxşılaşdırmış olur. Bildiyiniz kimi, minimum əməkhaqqı və minimum pensiya təxminən 40 faiz artıb. Sosial müavinətlər təqribən orta hesabla iki dəfə artıb. Köçkünlərə verilən müavinət 50 faiz artıb. Tələbələrin təqaüdləri, şəhid ailələrinə verilən müavinətlər, digər sosial ödənişlər artıb. Çoxmənzilli binaların sənədləşdirilməsi ilə bağlı müvafiq Fərman imzalanıb. Problemli kreditlərin həlli ilə bağlı çox ciddi Fərman imzalanıb. Onu deyə bilərəm ki, bu Fərmanın dünyada bənzəri yoxdur və bu Fərman 800 min insanı əhatə edir. Yəni Azərbaycan dövləti bir daha göstərir ki, öz vətəndaşının yanındadır".

Ölkəmizdə sosial siyasətin fasiləsiz və davamlı şəkildə həyata keçirilməsi dövlətimizin başçısı ilə cəmiyyətimiz arasında inam və etimad mühitini formalaşdıran ən təsirli faktordur. Təbii ki, bütün bunlar dostlarımızı sevindirir, Azərbaycanın əleyhdarlarını isə qıcıqlandırır, onların yuxusuna haram qatır. Bu şər qüvvələr "sapı özümüzdən olan baltalardan" istifadə edərək ölkəmizin əleyhinə apardıqları qarayaxma kampaniyasını gücləndirsələr də, heç nəyə nail ola bilmirlər. Əksinə, gündən-günə zəifləyərək həqiqətlərin qarşısında aciz qalırlar. Artıq onların sıraları da seyrəlir. Bu günlərdə Avropada "siyasi mühacir" adı ilə yaşayan bəzi dağıdıcı müxalifət nümayəndələrinin etirafları, xüsusilə ölkə başçısına qarşı fəaliyyətlərindən peşmançılıq ifadə edərək ondan üzr istəmələri və bununla bağlı bəyanatlar səsləndirmələri, hətta ölkəmizə qayıdıb ümumi işimizə fayda vermək istəmələrini dilə gətirmələri bunun əyani sübutudur. Həmin şəxslər artıq başa düşürlər ki, dövlətimizin başçısı Azərbaycan xalqının firavanlığı, ölkəmizin inkişafı və tərəqqisi yolunda çox böyük fədakarlıqlar göstərir, elə onların sığındıqları Avropanın nenerji təhlükəsizliyinə böyük töhfələr verir.

Onların bu açıqlamaları ictimaiyyətimiz tərəfindən müsbət qiymətləndirilib. Təbii ki, mühacirlərlə açılım məsələsi ölkəmizdə vətəndaş cəmiyyətinin inkişafında mühüm amillərdəndir. Ancaq nədənsə bu məsələ gündəmə gələn kimi dağıdıcı müxalifət düşərgəsinin təmsilçiləri, xüsusilə də AXCP sədri Əli Kərimli qondarma nümunələrlə sübut etməyə çalışır ki, bu, belə deyil. Əslində Ə.Kərimli qorxur ki, mühacirlər qayıdıb gəlsələr, tənqidçilərin sayı azalar və o daha da təklənər.

Sosial bazadan və ictimai dəstəkdən məhrum olan AXCP sədri Əli Kərimlinin bununla bağlı yazdığı "status" göstərir ki, bu şəxs artıq siyasi əxlaqın bütün sədlərini aşıb və özünü manyak kimi aparır. Bu adamda nifrət hissi, kin-küdurət o qədər çoxalıb ki, hətta Çkatilo kimi manyak dirilib hakimiyyəti tənqid etsə, onu da siyasi məhbus elan edər.

"Rejim özünü ifşa etməkdə davam edir. Bir tərəfdən saxta təbliğatla guya mühacirləri Vətənə qayıtmağa dəvət edirlər, o biri tərəfdən də onlara qarşı cinayət işləri başladırlar, qohumlarını incidirlər, özlərinə qarşı qara piar aparırlar. Sevinc Osmanqızına qarşı başlatdıqları mənəvi terror bumeranq effektilə özlərini vurduqdan sonra da ağıllanmayıblar. Almaniyada yaşayan bloqçu, "Azad söz" Feysbuk səhifəsinin və Yutub kanalının sahibi Tural Sadıqlıya qarşı cinayət işi başladıblar. Tural bəyin sərt tənqidi, sosial aksiyaları xüsusi bacarıq və həvəslə işıqlandırması rejimi təntidib. Çarəni rəsmi cinayət işi başlatmaqda görüblər. Yenə də təsdiq olundu ki, rejim həqiqətlərin yayılmasından qorxur. Siyasi mühacirlərə isə münasibət dəyişməyib. Rejim yalnız "islah olunmuş" mühacirləri Azərbaycanda görmək istəyir. Tural bəy isə möhkəmdir və artıq bəyan edib ki, ona qarşı cinayət işi açılması mövqeyini dəyişə bilməz",- yazan Ə.Kərimli şübhəsiz ki, yenə öz ampluasında qalaraq riyakarlıq edir. T.Sadıqlının isə hansı yuvanın quşu olduğunu və antiazərbaycan dairələrin sifarişlərini yerinə yetirdiyini cəmiyyətimiz yaxşı bilir.

"Rejim yalnız "islah olunmuş" mühacirləri Azərbaycanda görmək istəyir" ifadəsi ilə "Meydan TV"nin sabiq rəhbəri, bu yaxınlarda öz vəzifəsindən istefa verən Emin Millini nəzərdə tutur. Belə olmasaydı AXCP sədrinin bu "statusundan" sonra onun trolları sosial şəbəkələrdəki trolları Emin Millini hədəfə almaz, onu ən səviyyəsiz söyüşlərlə təhqir etməzdilər. Ə.Kərimlini narahat edən məsələ "Meydan TV"nin keçmiş rəhbəri Emin Millinin hakimiyyətlə müxalifət arasında dialoqun vacibliyini, milli mənafe və maraqların hər şeydən uca tutulmasını səsləndirməsidir.

Əslində daim demokratiyadan dəm vuran, demək olar ki, sosial şəbəkələrdə ekspert səviyyəsində olan , hakimiyyəti siyasi dözümsüzlükdə ittiham edən Ə.Kərimlinin ətrafında bir nəfər fərqli düşünən adam tapmaq mümkün deyil. AXCP sədri belələrinin hamısını təşkilatdan didərgin salıb. Məhz buna görə də AXC-nin köhnə funksionerlərinin hamısı Ə.Kərimlinin yanından uzaqlaşıb. Gedənləri yalançı vədlərlə aldadılmış üç-beş nəfər gənc, renegatlar, zombilər və siyasi əxlaq və mədəniyyətdən uzaq şəxslər əvəzləyiblər. Anti-Azərbaycan dairələrdən aldığı göstərişlər və sifarişlər əsasında fəaliyyət göstərərək milli maraqlara qənim kəsilən Əli Kərimlidən bundan artıq nəsə gözləmək də mümkün deyil. Ancaq bu danılmazdır ki, Ə.Kərimli artıq tələsdadır.

**Zahid Rza,**
***"İki sahil"***

## *Azər Həsrət:* Ermənistana Azərbaycanla uzunmüddətli müharibə aparmaq sərf etmir



Tarix boyu müşahidə etmişik ki, Ermənistan heç vaxt müstəqil siyasət həyata keçirə bilməyib. Dövlət olaraq hər zaman siyasi qüvvələrin maraqlarına xidmət edən siyasət nümayiş etdirib. Hazırda da bu tendensiya davam etməkdədir. Ümumiyyətlə, Paşinyan hakimiyyətə gəldikdən sonra Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı absurd, siyasi savadsızlığa söykənən təkliflərlə çıxış etməyə başladı. Bildirdi ki, mütləq şəkildə bu prosesdə qondarma bir qurum olan Dağlıq Qarabağ tərəf kimi çıxış etməlidir. Bu da təbii ki, onun hüquqi savadsızlığından irəli gəlirdi. Bu gün beynəlxalq münaqişələrdə problemlərin həllində qəbul olunmuş qaydalara əsasən mütləq şəkildə beynəlxalq hüququn subyektləri tərəf kimi iştirak etməlidir. Beynəlxalq hüququn subyektləri BMT tərəfindən tanınmış dövlətlərdir. Bu münaqişə də baş verən andan onun nizamlanması ATƏT-in Minsk qrupuna həvalə olunub. Münaqişədə tərəf kimi Ermənistan və Azərbaycan göstərilib.

Siyasi şərhçi Azər Həsrət bildirdi ki, rəsmi Bakı Ermənistanın baş nazirini danışıqlar masasına qayıtmağa məcbur etdi. Ötən bir il ərzində Nikol Paşinyan bir çox sərsəm bəyanatlar verməklə Ermənistanı işğal siyasətindən kənarda saxlamağa çalışdı. Bakının diplomatik hücumları və beynəlxalq təşkilatların təzyiqi onunla nəticələndi ki, ATƏT-in Minsk qrupunun həmsədrləri danışıqların formatının dəyişməsinin qeyri-mümkün olduğunu bildirdilər. Bundan sonra Avropa İttifaqının rəsmiləri də eyni bəyanatı verdilər.

A.Həsrət qeyd etdi ki, paralel olaraq Azərbaycan həm də təmas xəttində genişmiqyaslı təlimlər keçirməklə, bir daha öz hərbi və siyasi gücünü, beynəlxalq nüfuzunu bütövlükdə Ermənistana nümayiş etdirdi. Yalnız bundan sonra Paşinyan danışıqlar masasına qayıtmağa məcbur oldu. Çünki danışıqlar olmasa bunun alternativi müharibədir. Heç bir halda Ermənistana və onun havadarlarına indiki şəraitdə Azərbaycanla uzunmüddətli müharibə aparmaq sərf etmir. Paşinyanın radikal bəyanatları, danışıqlardan imtina etməsi Ermənistan informasiya resurslarında müharibənin başlanması kimi qiymətləndirilirdi. Əslində, Paşinyana səs verən, onu baş nazir edən elektoratın özündə də bir qorxu mövcud idi. Hesab edirdilər ki, danışıqlardan imtina etmək şübhəsiz ki, müharibə ilə nəticələnəcək.

A. Həsrət bildirdi ki, ən doğru seçim o olacaq ki, nəhayət substantiv danışıqlar başlasın və Ermənistan işğalçılıq siyasətindən əl çəksin. Ümid edirik ki, gec də olsa nəhayət işğalçı ölkə ən düzgün qərarın məhz bu qərar olduğunu dərk edəcək. Bu gün Dağlıq Qarabağ münaqişəsi Ermənistan kimi zəif bir ölkənin çiyinlərinin daşıya bilməyəcəyi bir yükə çevrilib. Ancaq qurtulacağı təqdirdə o ölkə həqiqətən inkişaf edə bilər".

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***

## *Baş həkim:*

## Dünyaya gələn körpənin sağlam böyüməsi üçün əlimizdən gələni edirik

"Son illər səhiyyə sistemində də uğurlu islahatlar həyata keçirilir. Qətiyyətlə deyə bilərəm ki, ölkəmizin tarixinin heç bir dövründə səhiyyəmiz indiki qədər geniş ictimai maraq predmeti olmayıb". Bu fikirləri Quba Regional Perinatal Mərkəzinin (RPM) baş həkimi Şəhla Həsənova "İki sahil" qəzetinə açıqlamasında söylədi.

Bildirdi ki, bu marağı şərtləndirən əsas amil ulu öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin səhiyyəyə olan xüsusi diqqət və qayğısıdır: "Faktlara müraciət edək. Son illər ölkəmizdə 640-dan çox yeni tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. 2018-ci ildə isə 9-u Bakı şəhərində, 38-i regionlarda olmaqla 47 tibb müəssisəsində təmir-tikinti işləri aparılıb. Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu, Respublika Narkoloji Mərkəzi, Naftalan, Quba, Qobustan rayon mərkəzi xəstəxanaları əsaslı təmir-tikinti işlərindən sonra ən müasir tibbi avadanlıqlarla təchiz edilərək əhalinin istifadəsinə verilib".

Baş həkimin fikrincə, yeni səhiyyə ocaqlarının tikintisi və yenidən qurulması bölgələrin inkişafını şərtləndirən amillərdəndir: "Necə deyərlər, bölgələrdə yaşayan sakinlərin uzun illərdən bəri qarşılaşdıqları səhiyyə problemləri arxada qalmaq üzrədir. Yeri gəlmişkən onu da qeyd edim ki, aprelin 30-da Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı vurğuladı ki, bu il keyfiyyət baxımından çox yüksək standartlara cavab verəcək 10-a yaxın yeni mərkəzi rayon xəstəxanası fəaliyyətə başlayacaq: "Beləliklə, Azərbaycanda bir dənə də şəhər, rayon olmayacaq ki, orada ən müasir standartlara cavab verən tibb mərkəzi olmasın". Bu isə bir daha o deməkdir ki, bu istiqamətdə böyük işlər görülüb və görülməkdə davam edəcək. Prezidentimizin fikirlərindən də görürük ki, region ictimaiyyətinin sağlamlığının qorunmasında dövlət çox maraqlıdır və buna görə də böyük tədbirlər həyata keçirir".

Daha sonra Şəhla Həsənova rəhbərlik etdiyi Quba RPM-in fəaliyyətindən söz açdı. Baş həkim bildirdi ki, qəbul olunmuş reproduktiv sağlamlıq strategiyasına və perinatal konsepsiyaya əsasən respublikamızda 7 Perinatal Mərkəz yaradılıb ki, onlardan biri də 2010-cu ildə fəaliyyətə başlayan Quba Regional Perinatal Mərkəzidir: "Bu, III səviyyəli doğuşa yardım müəssisəsi şimalda yerləşən 5 rayona xidmət edir. Ötən il Quba RPM-də 3000-dən artıq uşaq dünyaya gəlib. Cari ildə isə 615-ə yaxın körpə doğulub ki, bunlardan 544-ü normal, 67-si isə vaxtından əvvəl dünyaya gəlib. Dünya üzrə bir çox ölkələrdə erkən doğum 5-18 faiz olduğu halda, Azərbaycanda bu göstərici 10 faizdir. Rayonumuzda isə ötən il vaxtından əvvəl doğuş 4 faiz təşkil edib. Onu da qeyd edim ki, bir neçə il əvvəl Qubada uşaq ölümü 22 % 0 (promilli) idi. Lakin son illər bu rəqəm nəzərəçarpacaq dərəcədə aşağı düşüb. Belə ki, ölkə üzrə erkən uşaq ölümü 11,2 faiz təşkil edirdisə, rayonumuzda bu göstərici 6,2 faizdir. Bu da ölkəmizdə ən aşağı göstərici hesab olunur.



Şübhəsiz, bu nailiyyətlər savadlı mütəxəssislərimizin, eləcə də müasir tələblərə cavab verən innovasiyalarla təchiz edilən səhiyyə ocaqlarımızda yaradılmış əlverişli şərait və imkanlar hesabına əldə olunub. Bir sözlə, insan sağlamlığını şərtləndirən amillər arasında, ən vacibi sağlam həyat tərzidir. Biz həkimlər də dünyaya gələn hər bir körpənin sağlam böyüməsi üçün əlimizdən gələni edirik. Dövlət başçısının göstərişi ilə aparılan islahatlar, həyata keçirilən layihələrdən əldə edilən nəticələr bunu deməyə imkan verir ki, ölkəmizdə səhiyyə yeni mərhələyə qədəm qoyub".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

*Politoloq:*

## Paşinyan qondarma rejim qarşısında qorxusunu büruzə verir



Bir neçə gündür ki, Ermənistanda biri-birindən maraqlı siyasi proseslər gedir. Bununla da Koçaryan-Sarkisyan-Saakyan üçlüyünün yaratmış oduğu birlik baş nazir Nikol Paşinyan hökumətinə qarşı ciddi təhlükə yaratdığı halda, digər tərəfdən Paşinyanın özünün zərərsizləşdirdiyi sabiq prezident Robert Koçaryan həbsdən azad edilir. Vəziyyətin bu həddə çatması, xüsusilə də ölkə hakimiyyətinə qarşı ciddi təhlükənin yarandığı bir ərəfədə Nikol Paşinyanın sabiq prezident Robert Koçaryanın azad edilməsinə hansı zərurətdən yaşıl işıq yandırdığı barədə müxtəlif fikirlər səslənməkdədir. Onu da qeyd edək ki, bir çoxları bunu Rusiya amili ilə əlaqələndirirlər. Bildirilir ki, Ermənistan baş naziri Nikol Paşinyan çarəsizlikdən sələfləri kimi Rusiyadan asılı olmağı qərarlaşdırıb və Kremldən öz hakimiyyətinə dəstək alıb. Bu dəstəyin qarşılığında isə Moskva Paşinyandan yaxın adamı Robert Koçaryanın həbsdən azad edilməsini istəyib. Baxmayaraq ki, Koçaryan-Sarkisyan-Saakyan üçlüyünün İrəvanda hətta hakimiyyət çevrilişinə hazırlaşdıqları bildirilirdi.

Lakin bunaların ardınca baş nazir Nikol Paşinyan eksprezident Robert Koçaryanın həbsdən azad edilməsindən sonra xalqı etiraz aksiyaları keçirməyə səsləyib. Bir sıra xarici və daxili ekspertlər də məsələ ilə bağlı öz etirazlarını bildirərək qeyd ediblər ki, İrəvanda baş verən son gərginlik gözlənilən idi.

Erməni politoloq Aleksandr İsgəndəryan ölkədəki vəziyyətlə bağlı açıqlamasında bildirib ki, bu gözlənilməz proses deyil, iqtidarda keçid dönəmi davam edir: "Bu proseslər keçən il baş verənlərin davamı kimi görünür, sanki keçənilki proseslər təkrarlanır. Hələlik küçələrdəki hegemon güc indiki iqtidardır, küçələr hökumətin fəaliyyəti üçün əsas məkandır. Lakin indiyədək iqtidarın bir çox institutlarının çöküşünün şahidi olmuşuq. Çünki yeganə gücü küçə olan hakimiyyət güclü media və maliyyə imkanlarına sahib deyil. Media və maliyyə qaynaqlarının əksəriyyəti keçmiş hakimiyyətin nəzarətindədir, həmçinin siyasi müxalifət. Bu baxımdan mövcud hakimiyyətin imkanları məhduddur".

A.İsgəndəryan hesab edir ki, Ermənistanın məhkəmə sistemi keçmiş hakimiyyətin nəzarətindədir: "Buna görə də Robert Koçaryanı böyük siyasətə qaytara bildilər. İndi keçmiş hakimiyyəti dəstəkləyən qrup əvvəlkindən daha güclüdür. Bu isə ilginc gəlişməyə yol aça bilər".

**Politoloq Elşad Mirbəşiroğlu** isə mövzu ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki, Robert Koçaryanın həbsdən azad olunması istiqamətində Ermənistan cəmiyyətində müzakirələr intensiv hal alıb: "Hələ bundan əvvəl qondarma Dağlıq Qarabağ rejiminin rəhbərliyi Nikol Paşinyana Ermənistan Baş Prokurorluğundan sabiq prezident Robert Koçaryanın həbsdən azad olunması ilə bağlı müraciətlər edirdilər. Hətta Saakyan cavabdehliyi belə öz üzərinə götürməyə də hazır olduğunu bildirirdi. Budur məsələnin görünən tərəfi. Maraqlısı odur ki, hər iki tərəf arasında anlaşılmazlığın səbəbi nədir? Baxmayaraq ki, hazırda qondarma Dağlıq Qarabağ rejimi ilə Nikol Paşinyan hakimiyyəti arasında sözün əsl mənasında soyuq müharibə getməkdədir. Nikol Paşinyan hakimiyyətə gəldiyi ilk vaxtlardan belə qondarma Dağlıq Qarabağ rejimində də siyasi dəyişikliyə, yəni rejim dəyişikliyinə çalışırdı. Çünki Nikol Paşinyan çox gözəl dərk edirdi və indi də dərk edir ki, qondarma Dağlıq Qarabağ rejimində ona tabe olmayan hakimiyyətin mövcudluğu onun hakimiyyəti üçün çox ciddi bir təhlükədir".

E.Mirbəşiroğlu onu da qeyd etdi ki, Nikol Paşinyan həmişə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində Prezident İlham Əliyevlə danışıqlardan sonra bir növ qondarma Dağlıq Qarabağ ictimaiyyəti qarşısında hesabat verməyə çalışır. Burada məqsəd nədən ibarətdir?: "Hər şeydən öncə məqsəd ondan ibarətdir ki, Nikol Paşinyan Dağlıq Qarabağda yaşayan əhalinin rəğbətini qazanmağa çalışsın. Yəni göstərsin ki, onların iradəsinə zidd hər hansı bir addım Nikol Paşinyan tərəfindən atılmır. Digər tərəfi isə ondan ibarətdir ki, Nikol Paşinyan qondarma rejim qarşısında qorxusunu büruzə verir. Yəni qondarma rejim Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Nikol Paşinyanın tutacağı mövqedən onun özünə qarşı istifadə edə bilmə ehtimallarını nəzərdən keçirir".

Qondarma Dağlıq Qarabağ rejimi ilə Nikol Paşinyan hakimiyyəti arasında münasibətlərdəki gərginliyin davam edəcəyini qeyd edən politoloq onu da bildirdi ki, Xankəndidəki rejimin hazırkı əhval-ruhiyyəsi Nikol Paşinyan hakimiyyəti üçün birbaşa təhlükə rolunu oynayacaqdır: "Robert Koçaryan özünü Nikol Paşinyana opponent kimi görür və onun gələcəkdə hakimiyyətə gəlməsi üçün hərəkətlənmənin də şahidi ola bilərik. Təbii ki, bu proses həm qondarma Dağlıq Qarabağ rejimi tərəfindən, həm də müəyyən dairələr tərəfindən çox ciddi şəkildə dəstəklənəcəkdir. Bu da Paşinyan hakimiyyəti üçün heç də asan olmayacaqdır. Onu da qeyd edim ki, bununla da Ermənistanda daxili siyasi gərginlik və bu gərginliyə köklənmiş dərin iqtisadi gərginlik davam edəcəkdir".

**Mənsumə Babayeva,**
***"İki sahil"***

# Bax, gör nə gözəldir bizim həyət...

## İDEA-nın bütün təşəbbüsləri, layihələri xeyirxahlıq və humanizmə çağırışdır



Şərq memarlıq üslubu ilə müasirliyin vəhdətində inkişaf edən Bakı gözəl şəhərdir. Bu həqiqəti ölkəmizə gələn bütün qonaqlar təsdiqləyirlər. Son illərdə paytaxtımızın müxtəlif guşələrində yaradılmış əyləncə mərkəzləri, salınmış parklar, xiyabanlar, biri-birindən gözəl fontanlar paytaxtımıza xüsusi yaraşıq verir. Qonaqların da etiraf etdikləri kimi, analoqu olmayan Milli Parkımızda artıq "məskunlaşan", müxtəlif qitələrdən, ölkələrdən gətirilən ekzotik ağaclar, gül kolları həmahəngliyi ilə paytaxt sakinlərini, qonaqları heyrətləndirir. Təbiətin on bir iqlimindən doqquzunun Vətəni olan, Şərqin hərarətini şimalın sərt qışı ilə "tənzimləyən" ölkəmiz həm də "ekoloji körpü"dür.

Vətən sərhəddən, təmizlik, gözəllik, səliqə-sahman isə evin, həyətin kandarından başlanır. Gözəl təbiəti ilə seçilən, sıldırım dağlarında, qayalarında əsrlərin izlərini yaşadan Azərbaycanı əbəs yerə cənnətməkan yer adlandırmırlar. Həyat, yaşayış üçün oksigen mənbəyi olan hər kolun, ağacın təbiətə verdiyi xeyri dəyərləndirən insanlar yaşıllığı qorumaqla yurdumuzu gözəlləşdirən yüz illik ağaclara belə qulluq etməklə təbiətin dostu olduqlarını bildirirlər.

"Kim hansı bir sağlam ağacı kəsirsə, hesab edirəm ki, o mənim qolumu, barmaqlarımı kəsir. Bundan artıq cinayət olmaz. İnsan qurmalıdır, yaratmalıdır. Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız. Təbiətə zərər vuranlar, ağac kəsənlər, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşməndir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o öz ailəsinə, özü-özünə xəyanət edir" söyləyən ulu öndər Heydər Əliyev zəngin fauna və floraya malik Azərbaycanın təbii gözəlliklərinin qorunmasını hər bir vətəndaşın mənəvi borcu adlandırırdı.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ailə üzvləri ilə birlikdə Zığ dairəsi-Heydər Əliyev Beynəlxalq Aeroportu avtomobil yolunda salınan yaşıllıq sahəsində Ulu Öndərin doğum gününə həsr olunan ağacəkmə kampaniyasında iştirakı Ümummilli Liderin ekologiyamızın, zəngin flora və faunamızın qorunması naminə gördüyü işlərin davamıdır. Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə keçirilən aksiyada əvvəllər 50 mindən çox ağacın əkildiyi 4 hektarlıq həmin ərazidə daha 3.250 ağac əkildi.

Prezident İlham Əliyevin "İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. İnsanların sağlamlığı , ekoloji vəziyyət, udduğumuz hava, içdiyimiz su- bütün bunlara biz çox böyük diqqət göstərməliyik. Ekoloji məsələlərə diqqət, münasibət, eyni zamanda ölkənin ümumi siyasətinin ümumi mədəniyyətinin təzahürüdür. Son nəticədə ən önəmli sahə budur. Neft-qaz tükənən sərvətdir. Onların müvəqqəti önəmi var. Ancaq təbiət, ətraf mühit- bu daimi sərvətdir. Əsrlər boyu minilliklər boyu təbiət olub, kainat olub, dünya olubdur. Bizim vəzifəmiz ondan ibarətdir ki, bunu qoruyaq" kimi tövsiyələrini dəstəkləyən ölkə vətəndaşlarının yaşadıqları ərazilərin təmiz və abad olması naminə keçirilən iməciliklərdə ellikə iştirakı həm də birlik və həmrəylik nümunəsidir.

Təbii ki, elm və texnikanın inkişafı, yeni ixtiraların tətbiqi, istehsal sahələrinin yaradılması "ətraf mühitə müdaxiləni" qaçılmaz edir. Bu zaman həyat qaynağı olan torpağa , havaya, suya müəyyən mənada zərər də vurulur. Belə halların qarşısının alınması isə sabahımız üçün daim narahatlıq keçirən dünya alimlərini, ekoloqları düşündürür, təhlükələrin qarşısının alınması üçün yollar axtarılır, bütün insanları bir araya toplayan çağırışlar səslənir, gələcəyimizin təhlükəsizliyi üçün hamının səfərbər olması tövsiyə edilir.

Humanist və xeyirxah layihələri , təşəbbüsləri təkcə ölkədə deyil, beynəlxalq səviyyədə dəstəklənən Heydər Əliyev Fondunun vitse-prezidenti, Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq- İDEA-nın təsisçisi Leyla Əliyeva müasir dövrün çağırışlarına cavab olan qlobal ekoloji kampaniyaların məqsədlərini belə açıqlayır: " Sabah biz necə dünyada yaşayacağıq? Bizi nələr gözləyir, ekoloji problemlərin nə kimi nəticələri ola bilər? Biz planetimizə görə məsuliyyət hiss etməli və bioloji müxtəlifliyin, həyatımızı nəinki sağlam, həm də maraqlı və rəngarəng edən nə varsa hamısının qorunub saxlanılmasına töhfə verməliyik. Bunu nəzərə alaraq İDEA - qlobal gənclik ekoloji kampaniyasına başladıq."

"Bir planet-bir gələcək" devizi kimi maraqlı layihələr reallaşdıran İDEA-nın təşəbbüsləri beynəlxalq səviyyədə dəstəkləndi, kampaniyaya qoşulanların sayı artdı. Bu təşəbbüslər BMT tərəfindən də yüksək dəyərləndirildi. İDEA regional diskussiyalar aparmaqla bəşəriyyəti təhdid edən ən qlobal təhlükələrə qarşı birgə mübarizənin yollarını axtarır, ekoloji tarazlığın qorunması üçün vahid amal naminə birliyi düzgün yol və məqsəq hesab edir.

İDEA ətraf mühitin qorunması üzrə beynəlxalq təşkilat kimi çox maraqlı layihələrə imza atıb. Bunlardan biri Azərbaycanda üç milyon ağacın əkilməsi olub ki, bu da ölkəmizdə 3 milyon gənci ehtiva edir.

İDEA-nın "Hər kağızı, bir yarpağa dəyişək" adlı layihəsi də uğurlu oldu. Aksiya iştirakçılarının topladıqları 78 min 810 kq tullantı müqabilində 576 ədəd ağac alınıb "Təmiz Şəhər" ASC-yə məxsus Balaxanı Tullantıların Zərərsizləşdirilməsi Poliqonunun (5 min hektar) ərazisində əkilmişdir. Məlumat üçün bildirək ki, 1 ton kağızın istehsalı üçün orta hesabla 17 ağac kəsilir ki, bununla da atmosferin çirklənmə riski artır.

İDEA və "Cavan" Gənclər Hərəkatı İctimai birliklərinin təşkilatçılığı və Bakı şəhərinin rayon icra hakimiyyətlərinin dəstəyi ilə paytaxtda ictimai binaların həyətlərinin abadlaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi uğurla davam edir. Nəsimi rayonu, Alı Mustafayev küçəsi, 17-17a ünvanında 1200-dən artıq sakinin məskunlaşdığı binaları əhatə edən "Bizim həyət" layihəsi xeyirxah təşəbbüs kimi dəstəkləndi.

Əsas məqsədi ekoloji cəhətdən təmiz, abad həyətlərin sayını artırmaq, modernləşdirmək, yaşıllıqları qorumaq olan layihənin tətbiqi ilə yaşayış binalarının ətrafları tullantılardan, sağlamlıq üçün zərərli çirkablardan təmizlənir. Başqa sözlə deyilsə, "Bizim həyət" layihəsi paytaxtımızın gözəlliyini tamamlayır. Bu cür layihələr həm də dövlət siyasətinin əsasını təşkil edən insan amilinə, gələcəyimiz olan uşaqların sağlamlığına, yaşlıların səmərəli istirahətinə yönəldilən xeyirxah təşəbbüsdür. "Bizim həyət" layihəsinin tətbiqi, aksiyaya qoşulan sakinlərin iştirakı ilə həyətlərinin ekoloji cəhətdən abadlaşdırılması, şəhər mədəniyyətinə uyğun yaşıllıqların salınması, sağlam həyat tərzinin formalaşdırılması təmin edilir.

Layihənin növbəti ünvanı 2000-dən artıq sakinin yaşadığı Nizami rayonu, Bəhruz Nuriyev küçəsi 37, 39, 41, 47, 49 və Qara Qarayev prospekti 59 ünvanlarındakı binalar oldu. Layihəyə qoşulan sakinlərin iştirakı ilə sağlamlıq imkanları məhdud insanların rahatlığı, müxtəlif yaş qrupları üzrə uşaqların fiziki inkişafı üçün əlverişli şəraitin yaradılması və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri məqsədilə həmin ərazilərdə mini futbol, şahmat meydançaları salınır, müxtəlif idman və əyləncə qurğuları, asudə vaxtın təşkili üçün oturacaqlar, işıqlandırma dirəkləri quraşdırılır, ehtiyac duyulan binaların fasadları və giriş hissələri tam təmir edilir, yaşıllıqlar salınır. Artıq Nizami rayonunda layihə üzrə iyirmi üç binanın həyəti abadlaşdırılıb.

Azərbaycanda nəsli kəsilməkdə olan, flora və faunamızın qiymətli incilərindən sayılan nadir bitki və heyvan növlərinin qorunması üçün yaradılan qoruqlara xüsusi diqqətlə yanaşılması, Azərbaycan xalqına bəxş edilən nemətlərin zənginliyi ilə qürur duyduğunu bildirən Prezident İlham Əliyev bölgələrə səfərləri zamanı insanlarla təmasda olarkən yaşadıqları ərazilərin yeraltı, yerüstü sərvətlərindən düşünülmüş şəkildə istifadəni bütünlükdə ölkəmizin gələcəyi, iqtisadi inkişafı üçün əhəmiyyətli hesab edir: "Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qurmaq üzərimizə düşən başlıca vəzifədir."

Bu sahədə də İDEA İctimai Birliyinin həyata keçirdiyi "Şəhər ekologiyası" layihəsi təqdirəlayiqdir. Küçə heyvanlarının qorunmasına yönəlmiş İDEA Heyvanlara Qayğı Mərkəzinin xətti ilə həyata keçirilən layihələr təbiətə qayğıdır. Vaxtilə Bakıda çoxsaylı sincab və tutuquşularının məskunlaşması paytaxt sakinlərinin xatirindədir. Lakin yaranan ekoloji problemlər səbəbindən insanlara öyrəşmiş bəzi heyvan növlərinin, quşların da sayı azalıb. Bu günlərdə İDEA-nın təşəbbüsü ilə şəhər mühitinə öyrəşmiş 20-dən artıq sincab paytaxtın Velopark ərazisindəki yaşıllığa buraxılmışdır.

Bu cür layihələr bütünlükdə paytaxtın simasını dəyişir, flora və faunamızı zənginləşdirir, insanların yaşadıqları ərazilərin təmizliyi naminə vətəndaş məsuliyyətini artırır, uşaqların sağlamlığının qorunmasına xidmət edir. İctimai fəallıq tələb edən, "Bizim həyət" sözünü fəxrlə demək üçün kollektiv əməyin məhsulu olan bu cür layihələrdə iştirak hər kəsin arzusu, istəyidir.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

## “Xəbərlər” və “Axtarışlar”ın redaksiya heyətində dəyişiklik



AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin növbəti iclası keçirilib. Bölmənin sədri, akademik İsmayıl Hacıyev rəhbərlik etdiyi qurumun “Xəbərlər” və “Axtarışlar” jurnallarının redaksiya heyətində dəyişiklik edilməsi ilə bağlı iştirakçılara məlumat verib. O, hər iki jurnalın redaksiya heyətinə tanınmış xarici ölkə alimlərinin cəlb edilməsinin zəruriliyini vurğulanıb, həmçinin dizayn və nömrə formatlarının dəyişdirilməsi ilə bağlı təkliflərini irəli sürüb.

İsmayıl Hacıyev, həmçinin akademiyanın elmi jurnallarının keyfiyyətinin artırılması məsələsinin AMEA Rəyasət Heyəti tərəfindən diqqətdə saxlanıldığını bildirib. Qeyd edib ki, bu istiqamətdə “AMEA-da nəşr olunan jurnallar haqqında”, “AMEA-nın elmi jurnallarının monitorinqi və nəşriyyat fəaliyyətinin təkminləşdirilməsi haqqında” və “AMEA-da elmi jurnalların nəşrinin təkmilləşdirilməsi haqqında” sərəncam və qərarlar qəbul olunub.

Daha sonra Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru, dosent Yaşar Rəhimovun “XIX-XX əsrin əvvəllərində Naxçıvanda duz istehsalı və ticarəti tarixindən (Rus mənbələri əsasında)” mövzusunda məruzəsi dinlənilib. Qeyd olunub ki, Naxçıvanda duz çıxarılması qədim dövrdən mövcud olub və 1870-ci ildə şəhərdən tapılan daş balta və külünglər də bunu təsdiq edir.

Yaşar Rəhimov istehsal edilən duzun Naxçıvanın bütün kəndlərinə, o cümlədən Gəncəyə, Qarabağa, Şuşaya və digər başqa yerlərə ixrac olunduğunu diqqətə çatdırıb. Bildirib ki, Naxçıvan daş duz yataqları XIX əsrin əvvəllərində diyarda olan rus tədqiqatçıları, səyyahları və sənayeçilərin diqqətini özünə cəlb edib. Alim rus müəllifləri K.Nikitinin 1882-ci ildə dərc olunan “Naxçıvan şəhəri və Naxçıvan qəzası” adlı məqaləsinin 137-142-ci səhifələrinin duz yataqlarının yerləşdiyi ərazi, onun çıxarılma texnologiyası, miqdarı, qiyməti və satışı məsələlərinə həsr edildiyini və 1833-cü ildə Vasili Qriqoryev tərəfindən tərtib edilən “Naxçıvan əyalətinin statistik təsviri” kitabında XIX əsrin I yarısında Naxçıvandan Azərbaycanın bir sıra yerlərinə qatırla yük aparıldığı barədə məlumatların yer aldığını deyib. O, Naxçıvan duzunun özünəməxsus tamını və şöhrətini göstərən müəllif Vasili Qriqoryevin “Bu duz keyfiyyətinə görə bütün Zaqafqaziyada məşhurdur. Qarabağdan, Yelizavetpol dairəsindən, Şərurdan və Naxçıvanın bütün kəndlərindən bura karvanlar gəlir. Aprel ayından oktyabr ayınadək duz istehsalının əhatə dairəsi daha da genişlənir” fikirlərini iştirakçıların diqqətə çatdırıb.

Bundan əlavə, 1857-1866-cı illərində Duzdağda 2.6 milyon pud ölçü vahidində duzun hasil edildiyini söyləyib.

Məruzə dinlənildikdən sonra geniş müzakirə olunub, suallar cavablandırılıb.

Sonda bir sıra cari məsələlər müzakirə edilib.

**AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi**

## Universitetdə İtaliya-Azərbaycan Dizayn Mərkəzi

Dünən Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) İtaliya-Azərbaycan Dizayn Mərkəzinin açılış mərasimi olub. Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova ötən ilin iyul ayında iki ölkə arasında bir çox sahədə əməkdaşlıq sənədlərinin, o cümlədən AzMİU ilə Milan Politexnik Universiteti arasında anlaşma memorandumunun imzalandığını xatırladıb. Rektor qeyd edib ki, həmin sənəddən irəli gələn məsələlərdən biri AzMİU-nun nəzdində İtaliya-Azərbaycan Dizayn Mərkəzinin yaradılması təşəbbüsü olub.



Professor Gülçöhrə Məmmədova mərkəzi yaratmaqda məqsədin ölkəmizdə dizayn ixtisası üzrə təhsil alan savadlı, bacarıqlı mütəxəssislər yetişdirmək, dizayn təhsilinin İtaliya dizayn təhsili səviyyəsinə yüksəlməsinə çalışmaq olduğunu vurğulayıb.

Gülçöhrə Məmmədova bu il ilk dəfə olaraq dizayn ixtisası üzrə ingilisdilli tədrisin aparıldığını, bununla da ilkin addımlar atıldığını söyləyib. Rektor AzMİU-nun və Milan Politexnik Universitetinin birgə həyata keçirdiyi layihənin 2 il müddətində gerçəkləşdiriləcəyini, gələcəkdə bu müddətin artırılması, ikili diplom proqramlarının həyata keçirilməsinin qarşıya məqsəd qoyulduğunu diqqətə çatdırıb.

Təhsil naziri Ceyhun Bayramov Azərbaycan Prezidenti İlham Əliyevin təhsilə daim xüsusi önəm verdiyini vurğulayıb. Nazir deyib ki, AzMİU-da İtaliya-Azərbaycan Dizayn Mərkəzinin yaradılması ölkələrimiz arasında humanitar sahədə ikitərəfli əməkdaşlığın inkişafına dövlət səviyyəsində verilən yüksək diqqət və önəmin bariz nümunəsidir. Nazir belə bir mərkəzin yaradılmasının qeyd olunan iki universitet arasında faydalı əməkdaşlığın inkişafı üçün geniş imkanlar açacağını söyləyib.

İtaliyanın Bakıdakı səfiri Auqusto Massarini öz ölkəsi ilə Azərbaycan arasında təhsil əlaqələrinin əhəmiyyətindən bəhs edib. Səfir yeni mərkəzin dizayn ixtisasında təhsil alan tələbələrin mütəxəssis kimi yetişməsində mühüm rolu olacağına əminliyini vurğulayıb.

Milan Politexnik Universitetinin Dizayn Məktəbinin dekan müavini Françesco Zurlo və digər çıxış edənlər də mərkəzin təşkil olunmasını yüksək qiymətləndiriblər.

Sonra tədbir iştirakçıları dizayn ixtisasında təhsil alan tələbələrin italyan müəllimlərin rəhbərliyi altında keçirilən vorkşopda hazırladığı layihələrin təqdimatına baxıblar.

İtaliya-Azərbaycan Dizayn Mərkəzinin direktoru Könül Şirin qonaqları mərkəzin Sürətli Prototipləşdirmə Laboratoriyası, Maket studiyası və Ağac Emalatxanası ilə tanış edib.

Mərasimdə Milan Politexnik Universitetinin dizayn kafedrasının rəhbəri, professor Silvia Piardi, professor Mauro Secenello, dosent Silvia Qrameqna iştirak ediblər.

## Vüsal Qasımlı: Azərbaycanda problemli kreditlərin həll modeli güclü sosial xarakterə malikdir

Azərbaycanda problemli kreditlərin həll modeli güclü sosial xarakterə malikdir.

Bunu İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Koreya Respublikasının Azərbaycandakı Səfirliyi və Koreya İnkişaf İnstitutu ilə birgə “Problemli Kreditlərin Həlli: Azərbaycan və Koreya Təcrübəsi” mövzusunda keçirdiyi beynəlxalq konfransda Mərkəzin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı deyib.

Vüsal Qasımlı bildirib ki, Azərbaycanda problemli kreditlərin həllinin beynəlxalq təcrübədən fərqi böyükdür:

“Problemin həlli daha qısa bir müddətdə baş verir. Problemli krediti olan fiziki şəxslərin 90 faizindən artığı qərarın əhatə dairəsinə düşüb. Bu kreditlərin həllini bütünlüklə dövlət öz üzərinə götürüb. Beləliklə, banklar və əhali yükdən azad olur. Problemli kreditlərindən həllindən sonra bank sektoru tamamilə yeni mərhələyə çıxıb”.

# Zəngin sənət və mədəniyyət inciləri

**Muzeylər milli özünəməxsusluğu nümayiş etdirən, milli mənəvi dəyərləri toplayan, keçmişlə bağlı həqiqətləri təcəssüm etdirən, qoruyan və təbliğ edən mədəniyyət ocaqlarıdır. Bu gün muzeylərimiz zəngin sənət və mədəniyyət inciləridir.**

Hər il mayın 18-i dünyada Beynəlxalq Muzeylər Günü kimi qeyd olunur. Paytaxtımızda da bu gün münasibətilə müxtəlif tədbirlər reallaşdırılır. Belə ki, Azərbaycanda fəaliyyət göstərən bir çox muzeylərdə də Beynəlxalq Muzeylər Günü münasibətilə “Açıq qapı” günü keçirildi.

**Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin bələdçisi Ümidə Hacıyeva mövzu ilə bağlı “İki sahil”ə açıqlamasında bildirdi ki,** muzeylər keçmişdən soraq verən maddi-mənəvi xəzinə, nəsillər və tarixi mərhələlər arasında körpü və qoruyucu təmsilçidir: “Məhz bu baxımdan gələcəyimizin təmsilçiləri olan gənclərin maraq dairəsində maddi-mənəvi sərvətlərimizin, irsimizin, tariximizin qorunduğu, nümayiş olunduğu bir çox mədəni ocaqlara, o cümlədən muzeylərə ziyarət də önəmli yer tutmalıdır. Hər bir gənc nəsil nümayəndəsi öz tarixi keçmişində maddi- mənəvi irsindən xəbərdar olmalıdır, öyrənməlidir. Təkcə gənc nəsil deyil, bütün həmvətənlərimizin yaşından asılı olmayaraq muzeyləri ziyarət etməsində fayda var. Çünki muzeylər insan təfəkkürünün, milli əqidəsinin, azərbaycançılıq ideyasının yaşaması və inkişaf etdirilməsində özünəməxsus yer tutur. Beynəlxalq Muzeylər Gününün əsas məqsədi muzeylərin cəmiyyətin həyatında nə qədər mühüm bir rol oynadığını göstərməkdir. Bu bayram dünyanın 100-dən artıq ölkəsində qeyd edilir. Beynəlxalq Muzeylər Günündə insanlar muzeyləri gəzərək milli mədəniyyət və tarix haqqındakı məlumatlarını daha da zənginləşdirirlər. Hər il müxtəlif devizlərlə keçirilən bu bayram muzey əməkdaşlarını birləşdirir, ictimaiyyətin diqqətini muzeylərə cəlb edir. Bayram günü muzeylər öz qapılarını ziyarətçilərin üzünə açır və yaşından, vəzifəsindən asılı olmayaraq insanlara pulsuz xidmət göstərilir. Tarixi, maddi və mənəvi abidələrlə zəngin olan ölkəmizdə də Beynəlxalq Muzeylər Günü qeyd edilir. Bu peşə bayramı münasibətilə müxtəlif tədbirlər keçirilir, tariximizlə, mədəniyyətimizlə yaxından tanış olmaq məqsədi ilə mayın 18-də bütün muzeylərimizdə “Açıq qapı” günü elan edilir. Tarixi qaynaqlardan məlumdur ki, muzeylər zamanın müəyyən məqamını özündə yaşadan, ötən əsrlərin müxtəlif olaylarından xəbər verən eksponatları komplektləşdirən, qoruyan, saxlayan, öyrənən, nümayiş etdirən maddi-mənəvi xəzinədir. Muzey həm də şahiddir. O, eyni zamanda, keçmişimizi və bu günümüzü gələcəyə çatdı-



ran ən yaxşı bələdçidir. Muzeylərin əsas vəzifəsi əşyaların və eksponatların, sadəcə, qorunub öyrənilməsi deyil, həm də onu təbliğ etməkdən ibarətdir. Bu il isə Bakı muzeyləri “Muzeylər mədəniyyət mərkəzləri kimi: ənənələrin gələcəyi” devizi altında birləşərək “Park Bulvar” AVM-də “Muzeylər Park Bulvarın qonaqları” mövzusunda tədbir keçirildi. Əlamətdar gün ilə əlaqədar mayın 17, 18, 19-u tarixlərində Bakı muzeyləri öz sərgilərini nümayiş etdirdi, müxtəlif konsert və rəqs proqramları təşkil olundu. Bizim muzeyimiz də tədbirin fəal iştirakçılarından idi.”

Ümidə Hacıyeva, həmçinin muzeyləri ziyarət edən turistlərin sayında artımın olmasından da bəhs etdi: “Bilirik ki, son illər Azərbaycan dövləti bir çox beynəlxalq, mötəbər tədbirlərə ev sahibliyi edib. Formula 1 yarışları, IV İslam Həmrəyliyi Oyunları, Avropa Oyunları, “Eurovision” mahnı müsabiqəsi və bir çox dünya miqyaslı tədbirlər keçirilib. Məhz bu tədbirlərə ev sahibliyi edən paytaxtımıza təşrif buyuran turistlər bizim şəhərimizə, memarlıq abidələrimizə, milli mənəvi dəyərlərimizə , tarixi qoruqlarımıza, eləcə də muzeylərimizə baş çəkirlər. Bələdçilərimizə suallar verir, xüsusi qeydlər edirlər. Sanki turistlər muzeylərimizi vasitəsilə keçmişə səyahət edirlər. Ona görə də həmişə nəzərdə tutulan proqrama məhz muzey gəzintilərini də daxil edirlər. Bu baxımdan , muzeyləri ziyarət edən əcnəbi vətəndaşların sayında çox artım var.”

**Yaqut Ağaşahqızı,**
***“İki sahil”***

# Yuxusu "çin" olmayan Paşinyan



Nilufər Mustafaqızı

Regionun ən zəif, ən rəzil ölkəsi statusunu daşıyan Ermənistanda yaşanan iqtisadi, siyasi böhran, etirazlar, əhalinin yoxsulluq səviyyəsinin gündən-günə artması, demoqrafik vəziyyətin hər keçən gün daha da pisləşməsi və s. bu kimi hallar bütün dünyaya məlumdur. Hər zaman dünyanın güclü dövlətlərinə özlərini yazıq kimi göstərərək mənfəət güdən, bundan sonra da özlərini böyük bir qüvvə kimi qiymətləndirmə cürətini göstərən işğalçı ölkənin rəhbərlərinin yeni hədəfi bu dəfə dünya nəhənglərindən olan Çin Xalq Respublikası oldu.

"Səfillər" ölkəsinin lideri Nikol Paşinyan Çinə "işgüzar" səfərə gedərək yenə də bir arpa boyda yol qət edə bilmədən arzularını bağrına basıb geri dönməli oldu. Pekinə sərmayə dilənməyə gedən Paşinyan gerçəkləşdirə bilmədiyi yuxularını "çin" edə bilmək üçün gücü dilinə verməyi qərara aldı. İllərdir onun-bunun hesabına qətliamlar, soyqırımlar, terrorlar təşkil edərək özlərinə ölkə quranlar bu dəfə də öz amplualarında idilər. Bəli, bu dəfə də özlərini yazıq vəziyyətə gətirərək haqsız yerə blokadada olduqlarını, bunun Ermənistanın təhlükəsizliyi üçün böyük əngəllər törətdiyini səsləndirərək öz yalançı, riyakar xislətlərini yenidən bütün dünyanın gözü önünə sərən Paşinyanın yalanları bu dəfə ayaq belə tuta bilmədən yolda qaldı. Maraqlısı isə odur ki, Paşinyanın özünə də məlumdur ki, Çin kimi bir iqtisadiyyat nəhəngi Ermənistan kimi təcavüzkar, regionun bütün önəmli layihələrindən kənarda qalan, cırtdan, zavallı və dilənçi kökündə yaşayan ölkəyə axı nə üçün sərmayə yatırmalıdır? Görünür erməni lider özünü öz yalanlarına belə inandırmağı bacarmayıb.

Öz sələflərinin yolu ilə gedən, hətta onların dağıdıb tökdüklərini belə yerlə-yeksan edən Paşinyanın məqsədinə çata bilməməsi yenə də erməni xalqına baha başa gələcək. Çünki erməni xalqı onsuz da acdır və məhv olmaq üzrədir. Bunu biz yox, elə onların özləri etiraf edirlər.

İşğalçı ölkədə etiraz aksiyalarının olmadığı, əhalinin baş qaldırmadığı elə bir region, elə bir sahə qalmayıb. Jurnalistlərin Paşinyan rejimindən etdikləri narazılıqlardan sonra indi də İrəvan zooparkının işçiləri yenidən tətilə başlayıblar. Etirazçılar diqqəti məhv olmaq təhlükəsi ilə üz-üzə olan heyvanat parkının mühafizəsinə çəkmək istəyirlər.

İrəvan zooparkına yeni təyinatdan sonra orada vəziyyət daha da pisləşib. Mer Hayk Marutyanın yaxın qohumu olan heyvanat parkının rəhbəri onun ərazisini iaşə obyekti sahiblərinə satmağa başlayıb. Bu da zooparkın əməkdaşlarının narazılığına səbəb olub. İşə çıxmağa imtina edən etirazçılar şəhər meriyası qarşısında müddətsiz aksiyalara başlayıblar. Onlar İrəvan meri ilə görüş tələb etsələr də buna nail ola bilməyiblər. Etirazçıların sözlərinə görə 6 aydır Ruben Xaçatryan zooparka rəhbər təyin edilib və həmin gündən də problemləri pik həddə çatıb. Son 3 ayda zooparkda 10 heyvan qida çatışmazlığından ölüb. Ruben Xaçatryanın işindən narazı olan zoopark çalışanları onun 1 il də burada çalışmasının nəticəsi olaraq Ermənistanda yeganə olan bu heyvanat parkının məhvi olacağını deyiblər. Heyvanların acından, baxımsızlıqdan öldüyünü söyləyən zoopark əməkdaşları insanlardan dəstək gözləyirlər.

Görün bu ölkə nə gündədir ki, orada yaşamalı olan heyvanlar belə aclıqla mübarizə aparmalıdırlar. Bu səbəbdən aksiyanın keçirilməsi belə insanda bir ikrah hissi oyadır ki, axı sizin ölkənizdə insanlara belə dəyər verilmir, onların sağlamlıqları, yaşayış tərzləri, bu günləri, sabahları belə heç kimin vecinə deyil, dili, ağzı olmayan heyvanların hüquqları necə qorunacaq, onlar necə yaşayacaqlar? Bu kimi biabırçı səbəblərdəndir ki, bir damcı imkanı, potensialı olan hər kəs heç düşünmədən, arxalarına belə baxmadan qaçmağı hər şeydən üstün tuturlar. Vətəndaşları ölkəni tərk etməyə vadar edən əsas səbəblər kimi başda işsizlik - 31,7%, perspektivsizlik - 29,6%, ədalətsizlik - 19,3% və adi çörək pulu qazanmaq imkanı olmadığıdır - 17,2 % olmamasıdır.

Məhv olmaq gerçəkliyini illərdir yaşayan və heç cür bu reallıqdan yaxa qurtara bilməyən Ermənistanda son pərdənin enməsinə az qalıb. Lap az...

# Bakıda tramvay və trolleybuslar bərpa olunacaqmı?

**Avropada və dünyanın bir çox ölkələrində tramvaylar hələ də işləyir. Hətta bəzi böyük şəhərlərdə sürətli tramvaylar fəaliyyət göstərir. Türkiyədə isə sərnişindaşımada metrobusların istifadəsi tətbiq olunur. Bəs, Bakıda tramvay və trolleybus xətlərinin yenidən bərpası mümkündürmü? Həmçinin illərdir ki, tətbiqi gözlənilən və dəfələrlə müzakirələrə səbəb olan metrobus təcrübəsi paytaxtımızda gözlənilməndirmi?**

Belə ki, alternativ ictimai nəqliyyat növlərinin yaradılması istiqamətində zəruri addımların atılması gündəmdədir. Vətəndaşlara yaxşı sərnişindaşıma xidmətinin göstərilməsi həm təhlükəsizlik, həm də keyfiyyət baxımından vacibdir. Bu xidmətin müasir tələblər səviyyəsində qurulması əsas hədəfdir. Bununla bağlı dövlət başçısı tərəfindən də konkret tələblər qoyulub. Bu tapşırıqların icrası çərçivəsində hazırda avtobus parkının yenilənməsi və kart sisteminin əhatə dairəsinin genişləndirilməsi işləri gedir. Alternativ ictimai nəqliyyat növlərinin yaradılması məsələsi ötən ilin sonunda qəbul edilən Dövlət Proqramında da öz əksini tapıb.

**Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov mövzu ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki,** nəzərdə tutulan işlərin tətbiqindən sonra Bakı Nəqliyyat Agentliyi (BNA) tramvay və trolleybus xətlərinin bərpası və metrobus təcrübəsi məsələlərinə baxacaq: "Bu cür nəqliyyat vasitələrinin yenidən bərpa edilməsi üçün lazım olan şərait paytaxtda var. Ötən il ölkə Prezidenti İlham Əliyev tərəfindən yol hərəkətinin təhlükəsizliyinə dair Dövlət Proqramı təsdiqlənib. Proqramda bizim hər birimizi düşündürən, marağımızda olan məsələlər öz əksini tapıb. Çünki biz sürücü, sərnişin, piyada olaraq istənilən halda yol hərəkəti iştirakçısıyıq. Ona görə də bu proqram həyatımızın əksər hissəsini təşkil edir və biz hamımız maraqlıyıq ki, yollarımızda insanların təhlükəsizliyi, rahatlığı təmin edilsin. Tramvay və trolleybusların tətbiqi yaxşı olar. Çünki onlar digər nəqliyyat vasitələrindən daha təhlükəsiz və ekoloji cəhətdən təmizdir".

Ekspert qeyd etdi ki, tramvay və trolleybus kimi ictimai nəqliyyat növlərinin yaradılması, tətbiq edilməsi şəhər sakinləri üçün çox əlverişlidir: "Paytaxtda sıxlığı azaltmaq üçün atılan addımlardan bəlkə də ən vacibi elə bu olardı. İnsanlar məcburən şəxsi avtomobillərindən istifadə edirlər ki, bu da yollarda sıxlığa, tıxaclara səbəb olur. Xarici ölkələrdə isə demək



olar ki, yalnız böyük işgüzar görüşlərində və ya çox özəl məqamlarda şəxsi avtomobillərdən istifadə olunur".

Ekspert metrobus təcrübəsinin Bakıda tətbiq edilməsinin mümkün olduğunu və bunun paytaxtdakı tıxacları azaldacağını qeyd edib.

Qeyd edək ki, ötən il dekabrın 27-də ölkə Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair Dövlət Proqramı" təsdiqlənib və həmin proqramda bu cür ictimai nəqliyyat vasitələrinin yenidən bərpası məsələsi öz əksini tapıb. Proqramda bu işlərin görülməsi üçün 5 il müddət nəzərdə tutulub.

**Cavid Əkbərov,**
***"İki sahil"***

## *Koçaryan-Paşinyan savaşı:*
# Kim qalib gələcək?



Son günlər separatçı Dağlıq Qarabağ rejimi ilə İrəvan arasında gərginlik artıb. Hətta belə bir fikir də formalaşıb ki, separatçı rejimə Rusiyadan dəstək var. Politoloqların fikrincə, bu günlərdə baş nazir Nikol Paşinyanın Dağlıq Qarabağın əks-inqilabi mərkəzə çevrilməsi barədə səsləndirdiyi fikirlər də təsadüfi deyil. Xatırladaq ki, konstitusiya quruluşunu devirməkdə, külli miqdarda rüşvət almaqda ittiham olunan sabiq prezident, əslən Dağlıq Qarabağdan olan Robert Koçaryan təcridxanadan "Reuters" agentliyinə yeni partiyanın ortaya çıxacağını və onun Paşinyana böyük zərbə endirəcəyini bildirmişdi.

Bu günlərdə eks-prezidentin kiçik oğlu Levon Koçaryan da atasının ünvanına səsləndirilən ittihamları tamamilə rədd etməklə ictimai fikri özünə cəlb etməyi bacarıb. O bildirib ki, Robert Koçaryanın 2008-ci il martın 1-də keçirilən etiraz zamanı törədilən qətliama heç bir aidiyyəti yoxdur, sadəcə bəziləri bu olaydan dividentlər əldə etməyə çalışırlar. Kocaryanın oğlu "bəziləri" dedikdə o zaman "Aykakan jamanak" qəzetinin baş redaktorunu, yəni indiki baş nazir Nikol Paşinyanı nəzərdə tutduğunu da vurğulayıb.

Yeri gəlmişkən, qeyd edək ki, Robert Koçaryanın davam etməkdə olan məhkəməsinin ajiotaj doğurmasından ehtiyatlanan hakimiyyət prosesi qapalı keçirmək qərarına gəlib. Bu kimi proseslərə etiraz əlaməti olaraq İrəvan Şəhər Məhkəməsinin binası önündə Koçaryanın tərəfdarları ilə polis arasında qarşıdurma da yaranıb.

Qarabağdakı separatçı rejimin keçmiş və indiki rəhbərliyi də Nikol Paşinyanın etirazlarına baxmayaraq, Robert Koçaryanı həbsdən azad etmək cəhdlərini davam etdirirlər. Belə ki, onlar Koçaryan barədə həbs qətimkan tədbirinin dəyişdirilməsi üçün məhkəməyə bir milyon erməni dramı təqdim ediblər. Onların daha sonra bununla bağlı hansı addımları atacaqları bəlli deyil. Görünən odur ki, bu məhkəmə fonunda Ermənistan və "Qarabağ klanı"nın siyasi döyüşləri gedir. Hətta onlar Dağlıq Qarabağın "prezidentliyinə" Robert Koçaryanı gətirməyə çalışırlar. Məlumat üçün bildirək ki, 2020-ci ildə separatçı rejim Dağlıq Qarabağda "prezident seçkisi" keçirmək niyyətindədir.

Hələlik məhkəmə R.Koçaryanla bağlı qərarını verməyib. Amma Nikol Paşinyan öz qərarını verib. Belə ki, o, Kocaryanın ətrafını daha da daraltmaq məqsədilə Yerevanın keçmiş meri və Ermənistanın sabiq nəqliyyat naziri Qaqik Beqlaryanı da cinayət məsuliyyətinə cəlb etmək niyyətindədir. Xüsusi istintaq xidməti Ermənistanın böyük telekanallarından biri olan II İctimai Televiziyanın sahibi Samvel Mayrapetyanı da saxlayıb.

Son günlər baş verən bütün bu olayları analiz edən Ermənistanın "Rast" qəzeti də yaxın günlərdə yeni qüvvənin ortaya çıxacağının qaçılmaz olduğunu əminliklə vurğulayıb. Bildirib ki, özü də bu partiyaya ictimaiyyət arasında məşhur olan şəxslər toplaşacaqlar. Bəzi politoloqlar bu məsələdə Paşinyanın verdiyi vədlərin heç birini yerinə yetirə bilməməsi ucbatından Ermənistanın sosial-iqtisadi, siyasi cəhətdən ağır vəziyyətə düşərək regionda daha zəif mövqe sahibinə çevrilməsi amilinin də yetərincə rol oynadığını qeyd ediblər.

Digər tərəfdən, Nikol Paşinyanın Dağlıq Qarabağla bağlı populist çıxışları da onun normal qonşuluq münasibətləri qurmaq niyyətindən uzaq olduğunu göstərir. Bununla da Nikol Paşinyan erməni xalqını fəlakətə sürükləməkdədir.

Yeri gəlmişkən, artıq Ermənistanda Nikol Paşinyan əleyhinə açıq çağırışlar eşidilməkdədir. Məsələn, "Yerkir Tsirani" təşkilatının lideri Zaruhi Postancıyan xalqa müraciət edərək bildirib ki, siyasi, iqtisadi böhranın aradan qaldırılması üçün sosial təbəqələrin də fəallaşmasının vaxtı çatıb. Bunu da xalqı yeni qüvvələr ətrafında birləşməyə bir dəvət kimi dəyərləndirmək olar.

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

## SOCAR-ın TENDERLƏRİ



### "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı

**NKB-nin deşilməsi, kəsilməsi, divar qalınlığının ölçü işləri (MFC) və quyudibi təzyiqin ölçülməsi xidmətlərinin satınalınması olan tələbatını təmin etmək məqsədi ilə Açıq Müsabiqə (NKD-001/2019) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
* Müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında imzalanmış və möhürlənmiş müraciət ən geci 13 iyun 2019-cu il, Bakı vaxtı ilə saat 10:00-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi 1 (bir) əsli və 2 (iki) olmaqla 18 iyun 2019-cu il, Bakı vaxtı ilə saat 14:00-da Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Təklifin təminatı:***

* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin icrasına işlərə başlandıqdan sonra 2 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Satınalan təşkilatın ünvanı:***

AZ 1029, Bakı, H.Əliyev prosp., 121, SOCAR Tower, 8-ci mərtəbə
**Əlaqələndirici şəxs:** Nurlan Cəbrayilov
**Əlaqələndirici şəxsin vəzifəsi:** "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialının Satınalma üzrə mütəxəssisi
Tel: (+994 12) 521 00 00 (27346)
Mob:(+994 70) 658 4545; (+994 50) 655 4545
E-mail: tenders@socar-umid.com

***VI. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.azerweb.com;
www.ikisahil.az;
www.socar.az;

***VII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

* Zərflərin açılışı 18 iyun 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 14:00-da, elanın V qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***VIII. Müsabiqənin nəticəsi haqqında məlumat:***

* Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı e-maildən əldə edilə biləcək: tenders@socar-umid.com

**"Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialının Satınalmalar qrupu**

# Sumqayıt Təlim-Tədris Mərkəzi şagird qəbulu üçün müsabiqə keçirir

SOCAR-ın Təlim, Tədris və Sertifikatlaşdırma İdarəsinin Sumqayıt Təlim-Tədris Mərkəzi şagird qəbulu üçün müsabiqə elan edir. Müsabiqədə iştirak etmək istəyənlər Azərbaycan Respublikasının vətəndaşı olmalı, Sumqayıt şəhəri və ya Abşeron rayonunda qeydiyyatı olmalı (həmin ərazilərdə məskunlaşmış məcburi köçkünlər də müraciət edə bilər), 15.09.2019-cu il tarixinədək 29 yaşı tamam olmamalıdır. Hazırda təhsilini davam etdirən və ali təhsili olan gənclər müsabiqəyə müraciət edə bilməzlər. Müsabiqədə iştirak etmək istəyən kişilərin həqiqi hərbi xidmət keçməsindən asılı olmayaraq hərbi bileti olmalı, tibb müəssisəsindən sağlamlıq haqqında arayış təqdim etməlidirlər.

Təlim Mərkəzinə aparatçı, elektrik avadanlıqlarının təmiri və xidməti üzrə elektrik montyoru, nasos qurğusu maşinisti və təmirçi çilingər peşə ixtisasları üzrə ümumilikdə 33 şagird qəbul olunacaqdır.

Müraciətlər elektron formada qəbul olunur. Tələb olunan sənədlər və qaydalar haqqında məlumatı www.socar.az internet səhifəsinin "KARYERA" bölməsinin "TƏLİM MƏRKƏZLƏRİNƏ SƏNƏD QƏBULU" keçidinə daxil olaraq əldə edə və müvafiq qaydada müraciət edə bilərsiniz. Müraciət üçün son tarix: 28 may 2019.

Xatırladaq ki, qəbul bitdikdən sonra yuxarıda qeyd olunmuş qaydaların hər hansısa birinin pozulması aşkarlandıqda qaydanı pozan şəxs dərhal kursdan kənarlaşdırılacaqdır. Qanunvericiliyə müvafiq olaraq qadın əməyinin tətbiqi qadağan olunduğu peşələr üzrə yalnız kişilər qəbul olunacaqdır. Əvvəlki illərdə müsabiqədən uğurla keçmiş, amma üzrsüz səbəbdən imtina etmiş namizədlər müraciət edə bilməzlər. Orta ixtisas və ilk peşə təhsilli namizədlər attestat əvəzinə diplom təqdim etməlidirlər.

## Uğursuz nəticə



Pakistanın Karaçi sahilinin ofşor hissəsində yerləşən "Kekra-1" quyusunda neft və qaz ehtiyatları aşkar olunmayıb. Bu barədə baş nazirin neft üzrə baş köməkçisi Nadeem Babar məlumat verib.

"İki sahil" geo.tv saytına istinadən xəbər verir ki, Pakistan Ərəb dənizinin ölkəyə məxsus ərazisində neft və qaz ehtiyatı aşkar edəcəyinə çox ümidli idi. Sözügedən ərazidə bu günə qədər Birləşmiş Ştatların nəhəngi "Exxon Mobil", İtaliyanın ENI və digər şirkətlər ultra dərin neft quyusunda qazma işləri aparıblar. "Geo News"a açıqlamasında N.Babar quyunun 5500 metrliyindən daha artıq dərinlikdə qazma əməliyyatlarını apardığını bildirib. "Kekra-1" quyusunun da aid olduğu qazma əməliyyatlarının nəzərdə tutulduğu layihəyə 100 milyon dollar xərclənib. Quyu hazırda uğursuz nəticəyə görə sementlənərək tərk olunub.

## Hasilat 370 min barrelə çatacaq



"İki sahil" "spglobal.com" saytına istinadən xəbər verir ki, Xəzər dənizinin Qazaxıstan hissəsində yerləşən nəhəng "Kaşaqan" neft yatağında yenidən hasilata start verilib. Yaponiya nəhəngi "İnpex"in verdiyi məlumata görə, aprel ayının ortasından etibarən "Kaşaqan" yatağından 45 gün ərzində 340000 barrel neft hasil olunub.

Qeyd edək ki, şirkətin özü yataqda 7.56% paya sahibdir. Texniki səbəblərdən yaranan çoxsaylı gecikmələrə görə 2016-cı ildə yataqda hasilat dayandırılsa da, yataq yenidən işə salınıb. Hasilat yataqda tədricən artaraq ayın sonunda 370000 barrelə çatacağı proqnozlaşdırılır. "Kaşaqan" yatağında paya sahib olan digər şərik şirkətlər "Eni" (16.81%), "ExxonMobil" (16.81%), "KMG" (16.87%), "Shell" (16.81%), "Total" (16.81%) və "CNPC"dir (8.33%).

# "Mikorrizal kök şəbəkəsi"nin ilk qlobal xəritəsi

**Tədqiqatçılar bütün meşə və qoruq sahələrinin altında ağacları və bitkiləri bir-birinə bağlayan köklərdən, bakteriya və göbələklərdən ibarət kompleks bir şəbəkənin olduğunu təsbit etdi.**

500 milyon illik bu şəbəkə, internet üçün istifadə edilən "world wide web-dünya şəbəkəsi" termininə istinadən "world wide web" adlandırılıb.

Beynəlxalq bir araşdırma ilə bu bilinməyən və eyni zamanda, dünyaya hakim olan "mikorrizal kök şəbəkəsi"nin ilk qlobal xəritəsi çıxarıldı.

"Nature" jurnalında dərc edilmiş araşdırma İsveçrənin Zürih şəhərində yerləşən Krovser Laboratoriyası və ABŞ-ın Stanford Universiteti tərəfindən aparılıb.

Milyardlarla birbaşa meşə müşahidələri və simbiyotik əlaqələri istifadə edən tədqiqatçılar ilk dəfə bu göbələk şəbəkələrini aşağıdan görüntüləyən modelləşdirmə etdi.

Tədqiqatçılardan biri bildirib ki, "ilk dəfə ayaqlarımızın altından dünyanın qlobal görünüşünü əldə etdik."

Tədqiqatçılar mikromaliyyə şəbəkələrinin iqlim dəyişikliklərinin təsirini məhdudlaşdıran əhəmiyyətini və iqlim dəyişikliyi təhlükəsi altında olduqlarını da bildiriblər.

Professor Krovser "MRT çəkilişinin bizə beynin necə işlədiyini öyrənməyimizdə yardımçı olduğu kimi, torpağın altındakı bu köklərin qlobal xəritəsi də qlobal ekosistemlərin necə işlədiyini öyrənməyimizə yardımçı olur" dedi.

Həmçinin professor bildirib ki, "Biz müəyyən növ mikroorqanizmlərin dünyanın müəyyən bölgələrində yaşadığını təsbit etdik və müəyyən bir növ mikroorqanizmlərin necə qurulacağını və iqlimin necə dəyişdiyini anlaya bilərik. Bu növ mikroorqanizmlərin azalması həddindən artıq istiliyin və karbon istehlakının zərərlərini artıra bilər"



**Röya Rasimqızı, *"İki sahil"***

## Bu gün hava necə olacaq?



Ölkə ərazisində gözlənilən hava şəraiti ilə bağlı məlumat açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən Milli.Az-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı, gün ərzində isə havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər arabir güclənən şimal-qərb küləyi axşam şimal-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu Abşeron yarımadasında gecə 15-17, gündüz 21-25, Bakıda gecə 16-18, gündüz 24-26 dərəcə isti təşkil edəcək.

Atmosfer təzyiqi 761 mm civə sütunundan 766 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 75-85, gündüz 50-60 faiz olacaq.

Rayonlarda bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 13-18, gündüz 25-30, dağlarda gecə 5-10, gündüz 13-18 dərəcə isti təşkil edəcək.

Mayın 21-də Abşeron yarımadasında meteoroloji amillərin zəif və mülayim tərəddüdü meteohəssas insanlar üçün əsasən əlverişlidir.

## Bu telefonların sahibləri "Android" və "Google"dan istifadə edə bilməyəcəklər

Amerikanın "Google" şirkəti Çinin "Huawei" şirkəti ilə biznesəlaqəsini dayandırır.

Milli.Az oxu.az-a istinadən bildirir ki, Çin şirkəti ABŞ sanksiyaları altına düşdüyündən onun "Google" texnologiyalarına çıxışı məhdudlaşdırılır.

Bu o deməkdir ki, "Huawei" qadjetləri "Android" sisteminin yenilənməsini almayacaqlar. Bundan əlavə, "Huawei" istifadəçiləri "Google", "Google Play" və "Gmail" kimi proqramlara çıxışını itirəcək.




Buna baxmayaraq, Çin şirkətinin qadjetlərinə "Android"ın İnternetdə sərbəst axtarışda olan versiyasını yükləmək mümkündür.

## Soyuducunun içinə bir fincan qəhvə qoysanız...



Sağlamlıq baxımından soyuducunun təmiz olması vacibdir. Hər kəsə məlumdur ki, soyuducu təmizlənmədiyində içərisindən pis qoxular gəlməyə başlayır. Soyuducu rəflərinə bulaşmış yemək qalıqları bir müddət sonra bakteriya yaranmasına səbəb olur. Buna görə soyuducunu müntəzəm şəkildə təmizləmək gələcəkdə yarana biləcək pis qoxuların və sağlamlıq problemlərinin qarşısını almış olar.

Milli.Az soyuducunu təmizləmək üçün 4 praktik addım təqdim edir.

Soyuducunu təmizləmədən əvvəl işlək vəziyyətdə olub-olmadığından əmin olun. Əgər soyuducunuzda donmuş buzlar varsa, buzların əriməsini gözləyin, sonra təmizliyə başlayın.

- Soyuducuda təmizləmək istədiyiniz hissəni sirkəli su ilə silə bilərsiniz. Bu, pis qoxuların və bakteriyaların qısa müddətdə yox olmasına kömək edəcək.

- Soyuducudakı çətin gedən ləkələri silmək üçün istifadə edəcəyiniz əskiyə sirkə və soda əlavə edə bilərsiniz.

- Gigiyenik qaydalara əməl etmək üçün soyuducunun içini və çölünü ayrı-ayrı parçalarla təmizləyin.

- Soyuducunu təmizlədikdən sonra içərisinə bir fincan qəhvə qoysanız, yarana biləcək pis qoxuların qarşısını ala bilərsiniz.




## "Real" Kroosla "nikah təzələdi"

"Real" futbolçusu Toni Kroosun müqaviləsinin müddətini uzadıb.

Milli.Az xəbər verir ki, bu barədə klubun rəsmi saytı məlumat yayıb. Almaniya millisinin üzvü ilə müddəti 2023-cü ilin yayına qədər olan yeni sözləşmə imzalanıb.

2014-cü ildən "Real"da forma geyinən Kroos, bu mövsüm 43 qarşılaşmada iştirak edib.

## Dünyanın ən hündür ağacı



Sekvoyya dünyanın ən hündür ağacı hesab olunur. Bu hündürlükdə ağaca başqa heç yerdə rast gəlmək mümkün deyil. Bu ağac ABŞ-ın Kaliforniya ştatının Redvude parkında bitir. Park burada yetişən nümunəvi ağac növləri ilə fərqlənir.

Ağacın ikinci adı Qiperion adlanır. Qədim yunan dilində tərcüməsi çox hündür ağac deməkdir. Bu ağacın hündürlüyü 115,61 metrdir.

Ağacın hündürlüyü 34 mərtəbəli binanın hündürlüyünə bərabərdir.



Ağac bir neçə il bundan qabaq aşkar olunub. Bu, təsadüfən baş verib. İki jurnalist parkda gəzərkən çox uzaq məsafələr qət edirlər və qarşılarına çıxan ağacın hündürlüyü onları valeh edir. jurnalistlər ağacın diametrini və hündürlüyünü aydınlaşdırandan sonra ağac haqqında məqalə yazmağa qərar verirlər. Məqalə təbiət haqqında olan jurnalda çap edilir. Ağacın diametri 4,8 metrə bərabərdir.

Heç bir alim ağacın dəqiq neçə yaşı olduğunu deyə bilmir. Bir çox bioloqlar hesab edirlər ki, ağacın 800 il yaşı var və 2000 il ömrü ola bilər. Buna görə də bu ağacı hələ cavan ağac hesab etmək olar.

✍ **Könül Əliyeva,**
***"İki sahil"***


**ELAN:**

***Rəfiqə Rza qızı Rzayevanın adına verilmiş Binəqədi rayonu, Goradil qəsəbəsi 1701 nömrəli bağ sahəsinin 80 nömrəli orderi itdiyi üçün etibarsız sayılır.***

* * *

***Zair Fətulla oğlu Quliyevin adına verilmiş Abşeron rayonu Məmmədli kəndində yerləşən 308013022147 reyestr nömrəli torpaq sahəsinə dair 0008363 nömrəli Çıxarış itdiyi üçün etibarsız sayılır.***


**ALLAH RƏHMƏT ELƏSİN!**

SOCAR-ın "Azərbaycan neft təsərrüfatı" jurnalının redaksiya heyəti və kollektivi jurnalın baş redaktoru İbrahim Quliyevə, bacısı

**Elza xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


TƏSİSÇİ: SOCAR

Baş redaktor: **Vüqar RƏHİMZADƏ**

Baş redaktorun I müavini: **İsmayıl HACIYEV**

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
**Kod №** 200071
**VÖEN:** 2000157291

**TELEFONLAR:**
*Qəbul otağı:* **530-26-46, 430-87-97**
*Baş redaktorun I müavini:* **530-26-36**
*FAX:* **430-87-47**
*Mühasibatlıq:* **430-87-27**
*e-mail:* **ikisahil@azdata.net**

**Ünvan:** AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzetdə ***"AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX*** informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 21.05.2019-cu il saat 01:00
*Qiyməti:* **40 qəpik**, *Sayı:* **8214**
*İndeks:* **0151**, *Sifariş:* **1723**